Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 37 (8060) CÜMƏ, 15 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Prezidentin güc mənbəyi xalqın məhəbbətidir

### Kiçik Beyləqanda böyük Azərbaycanın möhtəşəm İLHAM ƏLİYEV sevgisi yaşandı





















**İlham Əliyevin əsas özəlliklərindən biri də liderlərin əsas siyasi taktikasına - "publikaya işləmək" üslubuna heç vaxt riayət etməməsidir.**

**16 ildə olduğu kimi göründü, göründüyü kimi də oldu...**

**Və xalq da sözü, əməli, mahiyyəti bir olan Liderini buna görə sevdi, ona inandı, güvəndi, onun yolunu öz yolu seçdi...**

#### Prezidentin rəsmi qrafikini və protokolunu pozan səmimiyyət

Mehriban xanım Əliyevanın srağagün axşam sosial şəbəkələrdə paylaşdığı ürək sözləri - "İnsanların böyük sevgisi Prezidentimiz üçün ən yaxşı güc mənbəyidir! Bütün beyləqanlılara Prezidentə göstərilən səmimi qəbula görə təşəkkürümü bildirirəm!" fikri son iki gündə ictimaiyyəti vəcdə gətirən müzakirələrin yəqin, ümumiləşdirilmiş və ən dolğun ifadəsidir.

Bəs Beyləqanda nə baş vermişdi?

Hamımıza məlumdur: Prezidentin fəaliyyət qrafiki əvvəlcədən müəyyənləşdirilir və səfərlərdə buna dəqiqəbədəqiqə riayət olunur. İlham Əliyev Beyləqanda Tarix-Diyarşünaslıq muzeyinin açılışından sonra əsgərlərə görüşə tələsirdi - səfərin qrafikinin növbəti bəndi bu idi. Amma muzeyin ətrafında toplaşmış insanları görərkən Prezident yolunu avtomobil kortejinə sarı yox, həmişə olduğu kimi, xalqına doğru yönəltdi...

Xalqı ilə qol-boyun oldu... Özü də bunu məcazi mənada demirik, 100-dən artıq insan ilə qucaqlaşıb-öpüşən, onların alqışını, duasını, təşəkkürünü, eyni zamanda, müraciətini eşidən Lider bu kiçik məkanda bir dünya dolusu sevgini yaşadı, etimadı gördü...

Prezidentə konkret müraciət formaları var. Xarici nümayəndə heyətləri "Zati-aliləri Prezident", ölkə məmurları "möhtərəm, cənab Prezident", rəsmi tədbirlərdə sadə vətəndaşlar "Əziz Prezidentimiz" deyə xitab edirlər.

Amma Beyləqanda ekspromt, anidən baş tutan görüşdə müraciət formaları fərqli olduğu qədər də səmimiyyətin xalqımıza məxsus xüsusi təzahürü idi...

"Başına dönüm", "Qadan alım", "Sən gələn yollara qurban olum"...

Nənələrimizdən, analarımızdan, böyüklərimizdən həyatımız boyu eşitdiyimiz, doğmalığın və məhəbbətin ən həssas ifadəsi olan bu alqışlar heç vaxt saxta deyilməz! Onu ancaq ailə üzvü qədər doğma saydığına, əziz bildiyinə söyləyərsən...

Bu alqışlar, dualar da İlham Əliyevə Prezident olduğuna görə deyil, məhz bu məmləkətin, bu xalqın yeganə ümidi, bu nənələrin, ataların doğma oğlu qədər sevimlisi olduğuna görə səslənirdi...

Səmimiyyət, doğmalıq idi ki, Prezidentə "Sən" deyirdilər, dönə-dönə bağırlarına basırdılar, şəkil çəkdirirdilər, körpələri onun qucağına verirdilər, ərklə danışırdılar, şadyanalıq edirdilər...

Bir sözlə, rəsmi protokolun pozulmamış bir bəndi də qalmadı...

Amma onu da etiraf edək, İlham Əliyev özü də bu "protokol" dediyimiz "rəsmiyyət kağızına" əsla uymadı, özü onu dəfələrlə pozdu...

Qarşısında gənc xanəndənin səsləndirdiyi vətənpərvərlik nəğməsinin nəqarətini - "Yurdum yuvam məskənimsən, Azərbaycanım, Anam doğma Vətənimsən, Azərbaycanım" misralarını bədahətən özü də oxudu, iki dəfə oxudu, ətrafındakılarla birgə oxudu...

Və bütün düşmənlərə, nankorlara həm də Azərbaycan adından meydan oxudu!..

Nə yaxşı ki pozuldu bu protokol... Bütün dünya, bütün bədxahlar bir daha gördülər İlham Əliyevin güc mənbəyini, qüdrətinin zəminini, yenilməzliyinin səbəbini...

"Nənələr, analar gecə-gündüz dua edirlər ki, qara qüvvələr Səndən uzaq olsun..."

Sısqa nənənin bu alqışının gücündən hansı böyük bir güc ola bilər?!

Və İlham Əliyevin arxasında dünyanın xalq adlı ən böyük gücünün olmasına kim şübhə edə bilər?!

#### Zabitlərinin Komandanı, əsgərlərinin atası

Prezidentin sonrakı səfəri hərbi hissəyə idi. Ordu quruculuğunun, milli müdafiə sənayesinin ən son nailiyyətləri ilə tanış olan Ali Baş Komandan əsgərləri ilə bir süfrə arxasında əyləşdi.

Ali rəhbərlə əsgərləri süfrəni də, çörəyi, suyu da paylaşdılar, maraqlı söhbət etdilər...

Və bizlər o an İlham Əliyevin simasında, onun əsgərlərlə davranışında, simsarlığında Ali Baş Komandanla yanaşı bir ƏSGƏR ATASInın həssas duyğularını da gördük...

Onu da gördük ki, İlham Əliyev üçün Heydər də, Məmməd də, Əhməd də eyni dərəcədə dəyərlidir, əzizdir...

İlham Əliyev Lələtəpə, Günnüt zəfərlərinin Sərkərdəsi və azad Qarabağın cahangir müjdəçisidir, həm də zabitlərinin Komandanıdır, əsgərlərinin atası...

Bəlkə də elə bu atalıq təəssüratının nəticəsi idi ki, əsgərlər hərbi nizamnaməni bəzən pozaraq, Ali Baş Komandanları ilə hərbi qayda ilə yox, əziz, doğma insanları kimi görüşdülər...

Bəli, səmimiyyət rəsmi protokolu, hərbi nizamnaməni pozursa, bu, qəbahət sayılmır və burada günahkar olmur!..

*Budur Azərbaycanın real mənzərəsi: xalq və Prezident rəsmi protokolları da, düşmənlərin oyununu da, Azərbaycana yönəlmiş məkrləri də pozurlar...*

*Bu gücün qarşısında kim dayana bilər ki?!..*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

## Mehriban Əliyeva qədim Gəncənin müasirləşməsinə böyük töhfələr verir

### Əbədi ehtiram ünvanı



Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərinə getdilər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Birinci vitse-prezidentə son illərdə şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.

Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşdü.





# “İmamzadə” Gəncənin İslam aləmindəki böyük nüfuzunun göstəricisidir





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədə “İmamzadə” dini kompleksini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında “Göy günbəz”, “Göy məscid”, yaxud “Göy İmam” kimi tanınan “İmamzadə” dini-mədəniyyət kompleksinin yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul etdiyini bildirdi. Qeyd edildi ki, bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan “İmamzadə” piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.




Mehriban Əliyevaya və Leyla Əliyevaya Qurani-Kərim hədiyyə edildi. “İmamzadə” əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlət başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Birinci vitse-prezident Mehriban Əliyeva burada ziyarətə gələnlərlə görüşdü.

Qeyd edək ki, fevralın 14-də “İmamzadə” kompleksində Azərbaycanın Birinci vitse-prezidentinin adından ehsan süfrəsi verilib.

# Mehriban Əliyeva tapşırıq verdi:

## *54 yaşlı məktəb əsaslı təmir ediləcək*




Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərində Nizami Aydın adına 18 nömrəli tam orta məktəbdə olublar.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Mətanət Rzayeva burada sonuncu dəfə 1988-ci ildə cari təmir işlərinin aparıldığını və hazırda bu təhsil müəssisəsinin əsaslı şəkildə yenidənqurmaya ehtiyacı olduğunu bildirdi. 1965-ci ildən istismarda olan məktəbdə tədris Azərbaycan və rus bölmələrində aparılır. 39 sinifdən 28-i Azərbaycan, 11-i isə rus bölməsinə aiddir. 640 yerlik məktəbdə hazırda 795 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 56 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.




2017-2018-ci tədris ilində məktəbi 61 məzun bitirib və onlardan 20-si Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 4 nəfər 600-dən, 5 nəfər isə 500-dən yuxarı bal toplayıb.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya məlumat verildi ki, əsaslı təmir işlərindən sonra bu təhsil ocağında tədrisin keyfiyyəti daha da yüksələcək və məktəb birnövbəli iş rejiminə keçəcək.

Şagirdlərlə söhbət edən Birinci vitse-prezident **Mehriban ƏLİYEVA** dedi:

- Sizə uğurlar arzulayıram. Gələn dəfə sizinlə yeni məktəbdə görüşəcəyik. Sizin üçün burada ən yaxşı şərait yaradılacaq. Əsas odur ki, siz yaxşı oxuyun, bilikli, güclü, vətənpərvər olun. Məktəbinizdə hər cür şərait olacaq. Sizə uğurlar, cansağlığı arzulayıram, sağ olun.

**Şagird:** Biz Sizi görməyimizə çox şadıq.

**Mehriban Əliyeva:** Sağ ol, əziz balam. Mən də sizi görməyimə çox şadam. Çox sevinirəm ki, belə gözəl balalarımız var.

**Şagird:** Arzu edirəm ki, nankor ermənilərin tapdağı altında olan torpaqlarımız tezliklə azad edilsin və belə gözəl məktəblər həmin rayonlarda da tikilsin.

**Mehriban Əliyeva:** Əhsən, inşallah.

Birinci vitse-prezident məktəbdəki mövcud vəziyyətin araşdırılması və təcili surətdə yenidən qurulması üçün tapşırıqlarını verdi.

# Heydər Əliyev Fondunun növbəti mərhəmət nümunəsi













Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədəki uşaq evinə baş çəkiblər.

AZƏRTAC xəbər verir ki, uşaq evinin direktoru Nazilə İsmayılova hazırda Gəncə şəhər uşaq evi üçün daha bir korpusun inşasının aparıldığını bildirdi. Qeyd edildi ki, tikinti işlərinə ötən ilin dekabrında başlanılıb. Burada iki yataq otağı, qış idman zalı, əmək və istirahət otaqları, yeməkxana və camaşırxana nəzərdə tutulub.

Mehriban Əliyeva uşaq evindəki şəraitlə tanış oldu, müəssisənin azyaşlı sakinləri ilə görüşdü. Balacalarla səmimi söhbət edən Birinci vitse-prezident onların uşaq evindəki yaşayışı, təhsili ilə maraqlandı. Uşaqlar da Mehriban Əliyevanın ətrafına toplaşıb istək və arzuları ilə bölüşdülər, oxuduqları kitablardan, maraq göstərdikləri oyunlardan, sevdikləri əyləncələrdən danışdılar.

Uşaqları böyük maraqla dinləyən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva onlara yaxşı oxumağı tövsiyə etdi, bilikli və savadlı olmaq üçün təhsillərinə diqqətlə yanaşmalarının əhəmiyyətini vurğulayaraq dedi:

- Çox sağ olun, uşaqlar. Çox sağ olun ki, məni belə gözəl rəqslə qarşıladınız. Çox gözəl oynayırsınız.

**Direktor Nazilə İsmayılova:** Siz sağ olun, Mehriban xanım. Uşaqların adından Sizə təşəkkür edirik. Hər zaman Sizin isti qəlbinizin məhəbbətini hiss edirik. O qəlbin istiliyini hiss edirik ki, bu uşaqlar 2017-ci ildə Sizin təşəbbüsünüzlə 10 gün Moskva şəhərində oldular, istirahət etdilər, yeni dostlar tapdılar. Minnətdarıq, var olun, Allah Sizi, möhtərəm Prezidentimizi, ailənizi qorusun. Hər zaman dualarımız Sizinlədir.

**Mehriban Əliyeva:** Çox sağ olun. Bizim bu gözəl balalarımıza öz sevgimi çatdırıram. Bilin ki, siz bizim ölkəmizin gələcəyisiniz, siz mənim üçün çox əzizsiniz. Sizin indi əsas vəzifəniz ondan ibarətdir ki, yaxşı oxuyasınız, bilikli, savadlı olasınız. Çünki Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz. Mən də hər zaman Sizin yanınızdayam.

**Nazilə İsmayılova:** İnşallah. Çox sağ olun, Mehriban xanım, təşəkkür edirəm.

Qeyd edək ki, bu müəssisə 1997-ci ildən fəaliyyət göstərir və 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub, işıq, qaz və su xətləri yenilənib, mərkəzləşdirilmiş istilik sistemi yaradılıb. İkimərtəbəli binada 4 yataq otağı, psixoloq, həkim, kompüter, əmək və istirahət otaqları, mətbəx və yeməkxana, böyük idman zalı var. Səksən nəfərlik uşaq evində hazırda 40-ı oğlan, 28-i qız olmaqla, ümumilikdə 68 uşaq tərbiyə alır. Onlardan 14 nəfəri azyaşlı, digərləri isə məktəblidir. Uşaqların təlim-tərbiyəsi ilə 50 nəfərlik işçi heyəti məşğul olur. Binanın həyətində uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün attraksionlar quraşdırılıb, ərazidə yaşıllıq sahələri salınıb.

Sonda xatirə şəkli çəkdirildi.

# Mir Cəlal irsi Gəncədə layiqincə yaşadılır







Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olublar.

AZƏRTAC xəbər verir ki, ev-muzeyinin direktoru İradə İbayeva muzey və onun nəzdində elmi-ədəbi tədqiqat şöbəsinin Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin 100 illik yubileyi ərəfəsində ədibin xatirəsinə ehtiram əlaməti olaraq yaradıldığını bildirdi. 2007-ci ildə istifadəyə verilən ev-muzeyinə ədibin pasportu, orden və medalları hədiyyə edilib. Hazırda bu əşyalar muzeyin ən dəyərli eksponatlarıdır.

Mir Cəlal Paşayevin ev-muzeyinin Gəncə şəhərində fəaliyyət göstərməsi təsadüfi deyil. Çünki o, Cənubi Azərbaycanda anadan olsa da, taleyi onu qədim Gəncə şəhərinə gətirib çıxarıb. Ədib həmişə Gəncəni sevib və doğma şəhəri bilib. Mir Cəlal Paşayevin uşaqlıq, gənclik və tələbəlik illəri, pedaqoji və ədəbi fəaliyyəti, ailə həyatı xronoloji ardıcıllıqla muzeyin ekspozisiyasında əksini tapıb. Hazırda eksponatların sayı 300-dən artıqdır. Muzey kompleksində 2009-cu ilin aprel ayında elmi-ədəbi tədqiqat şöbəsi fəaliyyətə başlayıb. Şöbənin yaradılması ədəbiyyatımızın tədqiqinə, araşdırılmasına xidmət edir.

Mir Cəlal Paşayev muzey kompleksində mütəmadi olaraq şair və yazıçıların kitab təqdimatları, şəhər ziyalıları ilə görüşlər, konsertlər, şagird və tələbələr üçün ədəbiyyat dərsləri, ekskursiyalar və digər ədəbi-bədii tədbirlər keçirilir. Muzey fəaliyyətə başladığı gündən şəhər əhalisinin, tələbə və şagirdlərin ziyarətgahına çevrilib.

# Birinci vitse-prezidentin təşəbbüsü ilə uşaq bağçası yenidən qurulacaq





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədəki 32 nömrəli körpələr evi-uşaq bağçasına baş çəkiblər.

AZƏRTAC xəbər verir ki, direktor Sahilə Hüseynova 280 yerlik bağçada hazırda 4 qrup üzrə 75 uşağın təlim-tərbiyə aldığını dedi. Bildirildi ki, ümumilikdə 20 nəfərlik heyət uşaqların sağlam, bilikli, bacarıqlı və vətənpərvər ruhda böyümələri üçün çalışır. Aparılan təlim-tədris prosesi uşaqların ətraf aləmlə tanışlığını gerçəkləşdirmək, ibtidai təhsilə dəstək üçün ilkin bilgilər vermək, ünsiyyət qaydalarını öyrətmək, fiziki və zehni sağlamlığını qorumaq məqsədi daşıyır.

Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, 32 saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi bina 1985-ci ildə inşa edilib. Hazırda bu məktəbəqədər təhsil müəssisəsində əsaslı təmirə ehtiyac yaranıb.

Qeyd edək ki, son illərdə Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə yeni bağçalar istifadəyə verilir, mövcud olanların isə əsaslı yenidən qurulması həyata keçirilir. Bu məqsədlə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı uğurla icra olunur. Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədəki 32 saylı körpələr evi-uşaq bağçasının da yenidən qurulmasının qısa zamanda və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini vurğuladı.

# *Mehriban ƏLİYEVA:* "Gəncəlilərin dəstəyini, sevgisini hər zaman qəlbimdə hiss edirəm və eyni hissləri mən də yaşayıram"









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncənin görməli yerlərindən biri olan "Xan bağı" mədəniyyət və istirahət parkında sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya "Xan bağı"nın simasının tamamilə dəyişdiyi barədə məlumat verildi.

Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan "Xan bağı"nda aparılan yenidənqurma işləri ilk dəfə məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Parkda müxtəlif ölkələrdən gətirilmiş ağaclar, dekorativ kollar əkilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub. Xalq şairi Nigar Rəfibəylinin heykəli və Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun qəbirüstü abidəsi də yeni görkəm alıb.

"Xan bağı" bitki florasının zənginliyinə görə bütün ölkədə məşhurdur. Ağacların növ tərkibi yerli cinslər hesabına artırılıb. Daxilində xiyabanlar salınıb, yay teatr binası, müxtəlif istirahət guşələri yaradılıb. Parkın yaraşıqlı yerlərindən biri də onun mərkəzində yerləşən əzəmətli çinar xiyabanıdır. Cərgələnən çinarlar arasında su hovuzları və fəvvarələr quraşdırılıb.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**Mehriban Əliyeva:** Xoş gördük, sizi salamlayıram.

**Sakinlər:** Çox sağ olun, bizə göstərdiyiniz qayğıya görə Prezidentimizə, Sizə böyük minnətdarlığımızı bildiririk. Xoş gəlmisiniz. Şəhərimizin rəhbərliyinə də minnətdarlığımızı bildiririk.

**Mehriban Əliyeva:** Yenidən Gəncədə olmağımdan çox şadam. Son dəfə beş il bundan əvvəl Gəncədə olmuşam. Gəncə qədim mədəniyyət mərkəzidir. Bütün dövrlərdə Gəncə incəsənət, mədəniyyət, memarlıq sənəti ilə tanınıb. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaradan görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Ona görə Gəncədə olmaq mənim üçün hər zaman çox xoşdur və çox sevinirəm ki, yenidən sizinlə görüşürəm.

**Sakinlər:** Biz Sizi çox istəyirik. Allah Prezidentimizin canını sağ eləsin. Hamımız Prezidentimizə təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

**Kişi sakin:** Prezidentimiz çox sağ olsun. Vaxtında sərmayə ayırdılar, işlər öz yolundadır, kirayə haqqı vaxtında verilir.

**Mehriban Əliyeva:** İlham Əliyev prezidentlik dövründə 15 dəfə Gəncədə olub, daim Gəncəyə diqqət göstərir. Gəncə bizim qədim şəhərdir, gözəl şəhərdir, böyük tarixə malik şəhərdir. Burada bütün tarixi, dini, memarlıq abidələri qorunur və qorunmalıdır. Amma, eyni zamanda, Gəncədə müasirlik var, müasir binalar, yeni yollar, infrastruktur, yeni parklar yaradılır. Xan bağı da qədim abidədir. Əlbəttə, tarixiliyi, qədim simanı qoruyub saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib. Burada təkrarolunmaz ab-hava var, əlbəttə, əsas gəncəlilərdir. Mən hər zaman sizin qonaqpərvərliyinizi, səmimiyyətinizi hiss edirəm, çox sağ olun, burada olmağıma çox şadam. Mən bir neçə məktəbə baxdım, uşaq bağçalarında, uşaq evində oldum. Əsas məqsədim ondan ibarətdir ki, problemləri, həllini tapmayan məsələləri bilim. Onların hamısı ardıcıl olaraq həllini tapmalıdır.

**Sakinlər:** Çox sağ olun, Allah razı olsun. Təşəkkür edirik, bizə belə qayğı göstərirsiniz.

**Kişi sakin:** Mən cənab Prezidentə təşəkkür etmək istəyirəm. Uzun müddət idi ki, evlərimizin damları yararsız hala düşmüşdü. İndi çox gözəl damlar düzəldilir. Allah Prezidentimizin canını sağ eləsin.

**Mehriban Əliyeva:** Vəsait ayrılıb.

**Kişi sakin:** Bəli, vəsait ayrılıb. Gözəl asfalt yollarımız, müasir məktəblərimiz, poliklinikalarımız var. Bütün bunlarla fəxr edirik. Məktəblərimiz, universitetimiz çox gözəldir. Bilirsiniz ki, Gəncə Dövlət Universiteti qərb zonasında ən böyük universitetdir. Orada ulu öndərimizin gözəl guşəsi var. Sizin bu gün Gəncəyə gəlməyiniz, xüsusilə Leyla xanımla gəlməyiniz bizi çox sevindirir. Düz deyirlər, o, bizim qızımızdır.



Dünya Azərbaycanlılarının arzusudur ki, bayrağımız Şuşada, Xankəndidə, Cəbrayılda, Zəngilanda, Kəlbəcərdə, Laçında dalğalansın.

**Mehriban Əliyeva:** Amin! Bu, hər bir azərbaycanlının ən böyük arzusudur, inşallah.

**Sakinlər:** Biz Prezidentimizə inanırıq, biz onu çox istəyirik. Gəncəlilər həmişə onun arxasındadır.

**Kişi sakin:** Mən Aqil Paşayevin 40 illik dostuyam. Sizə bir jurnal gətirmişdim, Mir Cəlal Paşayevin ev-muzeyi haqqında idi.

**Mehriban Əliyeva:** Elə indi mən Mir Cəlal Paşayevin ev-muzeyində oldum.

**Kişi sakin:** İndi Gəncədə çox gözəl işlər gedir. Əvvəllər küçələrimiz çala-çuxur idi. İndi qəşəng asfalt salınır. Dam örtükləri təzələnir, həqiqətən, böyük savab iş görmüsünüz.

**Mehriban Əliyeva:** Prezident də sizə salamlarını göndərdi. Mənə dedi ki, gəncəlilərdən soruşun, onları narahat edən hansı məsələlər var, ardıcıl olaraq hamısı həllini tapacaq.

Məktəblərlə bağlı məsələlərlə sıx məşğul oluram. Siz bilirsiniz ki, son 15 ildə ölkə üzrə 3 mindən çox məktəb tikilib və ya bərpa olunub. Ölkəmizdə bir dənə də təmirsiz məktəb qalmamalıdır. Ona görə bu sahədə ardıcıl olaraq bütün tədbirlər görülür, həm dövlət proqramı çərçivəsində, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə. Mənə məlumat verdilər ki, uşaq bağçaları ilə bağlı problem var, beşi qəzalı vəziyyətdədir. Dərhal məşğul olacağıq ki, onların da maddi-texniki bazasını yenidən quraq. Bilirəm ki, Gəncə şəhərində infrastrukturla bağlı çox işlər görülür, qazlaşdırma, enerji ilə təminat 100 faizdir.

**Kişi sakin:** Ölkəmizdə əmin-amanlıq var. Cənab Prezident müharibə olmasını istəmir, torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışır. Sizin daha bir xeyirxah işiniz - xəstə uşaqların, xəstə anaların müalicəsinə kömək etməyiniz bizi çox ruhlandırır. İnanın, elə bil ki, Siz hər gün o uşaqlarla gedib Məkkəni ziyarət edib gəlirsiniz. Bu, çox xeyirxah işdir. Ona görə də bu gözəl qızlar Sizə minnətdardırlar.

**Mehriban Əliyeva:** İmkanım olanda hər zaman kömək etməyə çalışıram.

**Kişi sakin:** Bəli, çox sağ olun, Allah imkanlarınızı daha da çox eləsin.

**Mehriban Əliyeva:** Mən bilirəm ki, keçən ilin noyabr ayında bu binada partlayış olub. Hadisə zamanı əfsuslar olsun ki, 3 nəfər həlak olub, Allah rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Amma onu da deyim ki, bu məsələ Prezidentin tam nəzarəti altındadır, sərəncam da imzalanıb, vəsait də ayrılıb. Qısa bir zamanda yeni, müasir və çoxmənzilli yaşayış binası tikiləcək və 36 ailənin hər biri yeni mənzillə təmin olunacaq.

**Qadın sakin:** Çox sağ olun, Sizin qayğınızı hər zaman hiss edirik.

**Mehriban Əliyeva:** Mən də sizin məhəbbətinizi, dəstəyinizi hiss edirəm, çox sağ olun.

**Kişi sakin:** Tez-tez gəlin, Mehriban xanım, Sizi gözləyəcəyik.

**Gənc kişi sakin:** Gəncənin gəncləri adından təşəkkür edirəm. Mən Prezidentin gənclərin xaricdə təhsili ilə bağlı fərmanına əsasən Almaniyanın Fray Universitetində təhsil almışam, fəlsəfə doktoruyam. Çox təqdirəlayiq haldır ki, ölkəmizdə gənclərə çox böyük dəstək var, önəm verilir. Hazırda Gəncədəki Aqrar Universitetin elm şöbəsində çalışıram. Bizim rektorumuz da gənclərə çox önəm verir. Mən özüm də şadam ki, xaricdə doktorantura üzrə təhsil alıb gəlmişəm və çox böyük diqqət və qayğı ilə əhatə olunmuşam. Buna görə bir gənc kimi Prezidentimizə, Sizə çox təşəkkürümü bildirirəm, çox minnətdaram. Çox xoşdur ki, Sizinlə görüşüb ürək sözlərimi deyə bildim.

**Mehriban Əliyeva:** Çox gözəl, bunu eşitməyə çox şadam, çox sağ olun.

**Qadın sakin:** Gəncəlilərin salamlarını cənab Prezidentə çatdırmağı xahiş edirik. Biz onu çox sevirik.

**Mehriban Əliyeva:** Sağ olun, mən sizin salamlarınızı Prezidentə çatdıracağam. Çox sağ olun. O da sizi çox sevir.

**Yaşlı kişi sakin:** Mehriban xanım, elimizin, obamızın, millətimizin gözəl xanımı. Möhtərəm Prezidentimizlə çiyin-çiyinə bu mürəkkəb dünyada Azərbaycanı belə gözəl vəziyyətdə saxlayıb, hörmətli Prezidentimizin özünün dediyi kimi, bir sabitlik adasına çevirməyin özü böyük şərəfdir. Sizinlə burada görüşməyimiz bizim üçün böyük şərəfdir. Ulu öndərin yadigarı, möhtərəm Prezidentimiz Gəncəyə həmişə diqqət göstərir. Mehriban xanım, Siz də Gəncəyə həmişə qayğı göstərirsiniz. Bunları bir-iki kəlmə sözlə sadalayıb qurtarmaq mümkün deyil. Siz özünüz bizdən də yaxşı bilirsiniz ki, Gəncə üçün hansı işlər görülüb, Gəncədə elə bir gözəl şərait yaranıb ki, burada işləmək də, yaşamaq da şərəfdir. Biz qürur hissi keçiririk ki, Sizin kimi rəhbərlərimiz var. Biz hər şeydən arxayınıq. Bu gözəl balalar da Sizinlə görüşə gəliblər. Mehriban xanım, bu gözəllik Sizin sayənizdədir.

**Qadın sakin:** Evimiz hazır olsun, Sizi qonaq dəvət edərik, İnşallah.

**Mehriban Əliyeva:** Sağ olun. Mən şadam bunların hamısını eşitməkdən. Mən də ürək sözlərimi deməliyəm. Mən çox xoşbəxtəm ki, yenidən Gəncədəyəm. Gəncə xüsusi şəhərdir. Gəncənin mehriban insanları, gözəl memarlığı, qədim tarixi, təkrarolunmaz ab-havası var. Əlbəttə, mən məktəblərə də getdim, uşaq evlərində, muzeydə, "İmamzadə" Kompleksində oldum. Amma buraya gələndə mənim əsas məqsədim o idi ki, gəncəlilərlə görüşüm. Doğrudan da mən sizin bu dəstəyinizi, sevginizi hər zaman qəlbimdə hiss edirəm. İnanın ki, eyni hissləri mən də yaşayıram. Dediyim kimi, cənab Prezident 15 dəfə Gəncədə olub və inşallah, yenə də olacaq. Ona görə burada həyata keçirilən bu abadlaşma, bu inkişaf hər zaman bizim diqqətimizdədir, hər zaman bizi sevindirir. Amma, eyni zamanda, yenə də deyirəm ki, hələ də öz həllini tapmayan problemlər də var. Biz onları bilməliyik, biz onların həlli üçün ardıcıl tədbirlər həyata keçirməliyik. Çünki əsas məqsəd odur ki, insanlar rahat, xoşbəxt yaşasınlar və ölkəmizdə bunun üçün hər şey var. Mən sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox şadam hər birinizi görməyə. Çox sağ olun. Çalışacağam Gəncəyə tez-tez gəlim.

**Yaşlı kişi sakin:** Biz də Sizə minnətdarıq, Mehriban xanım. Mən ulu öndərlə 3 dəfə görüşmüşəm. Onun keçirdiyi plenumlarda, büro iclaslarında iştirak etmişəm. Gəncəlilər Heydər Əliyev ideyasına həmişə sadiqdirlər və həmişə də sadiq olacaqlar. Gəncəlilər Prezident İlham Əliyevin arxasındadırlar. Mehriban xanım, gəncəlilər Prezident İlham Əliyevin və Sizin dəstəyinizi hiss edirlər və minnətdardırlar. Gəncədəki bugünkü sabitlik, abadlıq, quruculuq işləri fərəhlidir, ürəkaçandır. Bunu hər bir gəncəli hiss edir. Hər bir gəncəlinin çöhrəsindən də hiss etmək olur ki, bu, doğrudan belədir. Sizə təşəkkür edirik. Bizim salamlarımızı Prezidentimizə çatdırın.

**Mehriban Əliyeva:** Çox sağ olun. Mütləq çatdıracağam.

**Yaşlı kişi sakin:** Mehriban xanım, minnətdarıq ki, işinizin bu qədər çox olduğu bir zamanda vaxt tapıb Gəncəyə gəlmisiniz, gəncəlilərlə görüşür və onları dinləyirsiniz. Sizə cansağlığı, uzun ömür arzulayıram.

**Mehriban Əliyeva:** Çox sağ olun. Söz verirəm ki, Gəncəyə tez-tez gələcəyəm. Əmin olun ki, Gəncə ilə bağlı bütün məsələlər, problemlər mənim diqqət mərkəzimdədir. Siz hər zaman əmin ola bilərsiniz ki, hər bir məsələ, sizi narahat edən hər bir sualla bağlı biz əlaqədə ola bilərik və mən əlimdən gələni etməyə hazıram.

Siz yəqin bilirsiniz ki, biz Heydər Əliyev Fondunun nəzdində gənclərin "Regional İnkişaf" İctimai Birliyini yaratmışıq. Burada çalışan bütün gənclər istedadlıdırlar, vətənpərvərdirlər. Yəqin ki, görmüsünüz, Şamaxıda zəlzələdən sonra onlar orada gecə-gündüz çalışırlar, insanlara kömək edirlər. Yəni, bu kömək həm də mənəvi kömək olmalıdır. Ona görə onlar burada da çalışırlar. Gəncədə yaşayan gənclər də bu birliyə qoşula bilərlər. Ona görə bizim daim əlaqəmiz olacaq.

Mənə göstərdiyiniz belə səmimi, belə isti qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm. Prezidentin səmimi salamlarını sizə çatdırıram. Çox sağ olun.

**Kişi sakin:** Xoş gəlmisiniz, Mehriban xanım. Bütün digər sahələrdə olduğu kimi, elmin, təhsilin, mədəniyyətin inkişafına göstərdiyiniz qayğıya görə cənab Prezidentə və Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Milli Elmlər Akademiyasına daim dövlət qayğısı göstərilir, əməkhaqqımız qaldırıldı. Minimum əməkhaqqı artırıldı. Gəncə şəhəri üçün nə qədər işlər görüldü. Niyazi müəllimin buraya təyin edilməsi bizə ürək rahatlığı verdi. Bütün ziyalılar adından bizim salamlarımızı, minnətdarlığımızı cənab Prezidentə çatdırmağınızı xahiş edirəm. Biz sizi çox sevirik.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Kişi sakin:** Mehriban xanım, bütün gəncəlilər adından Sizi salamlayıram. Mən Gəncə Dövlət Universitetinin professoruyam. Biz buraya gəlmişik ki, Sizi görək. Xahiş edirəm, bizim minnətdarlığımızı Prezidentimizə çatdırın.

**Mehriban Əliyeva:** Çatdıracağam, sağ olun.

## Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Serbiya arasındakı strateji tərəfdaşlıq münasibətləri, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## E.M.Hüseynovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Eyvaz Mövsüm oğlu Hüseynov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

## M.Ə.Məmməd-Quliyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mahmud Əhməd oğlu Məmməd-Quliyev 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

## “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir avadanlıqla təchiz olunması üçün “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

## “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 579; 2004, № 9, maddə 684; 2006, № 12, maddə 1056; 2008, № 9, maddə 796; 2013, № 9, maddə 1049; 2018, № 5, maddə 935) 1-ci hissəsində “185 (yüz səksən beş)” sözləri “210 (iki yüz on)” sözləri ilə əvəz edilsin.

2. Bu fərman 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

# Milli Məclisdə “Peşə birlikləri haqqında” qanun layihəsinin ictimai müzakirəsi keçirilib



Fevralın 14-də Milli Məclisin İnsan hüquqları və hüquq siyasəti və Dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda “Peşə birlikləri haqqında” qanun layihəsinin ictimai müzakirəsi keçirilib.

Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova deyib ki, parlament müxtəlif mövzular ətrafında ictimai müzakirələr, diskussiyalar, konfranslar təşkil edir, gündəmin mövzularına dair geniş müzakirələr açır və sosial təbəqələrdən gələn sifarişləri, istək və arzuları, mövcud problemlərin həlli yolları ilə bağlı təklifləri daim dinləyir, müzakirə edir və qanunların qəbulu prosesində bundan faydalanır. Bu səviyyədə çoxsaylı müzakirələr keçirilib, Milli Məclisin komitələrində, o cümlədən plenar iclasda müzakirə olunaraq bir çox qanunlar qəbul olunub ki, bunlar da bu gün həyatımızın müxtəlif sahələrini tənzimləyən vacib normativ hüquqi aktlara çevrilib.

Bahar Muradova qeyd edib ki, zamanın reallıqları nəzərə alınaraq Milli Məclisdə artıq bir neçə zəruri sənəd, o cümlədən “İctimai iştirakçılıq haqqında”, “Könüllü fəaliyyət haqqında” və digər qanunlar hazırlanıb və qəbul olunub. 2019-cu ilin yaz sessiyasının qanunvericilik işləri planına da bir sıra yeni qanun layihələri daxil edilib. Bunlardan biri deputat Azay Quliyevin müəllifi olduğu “Peşə birlikləri haqqında” qanun layihəsidir. Bu qanun layihəsinin ictimai müzakirəsi hər şeydən əvvəl bu məsələ ilə bağlı vəziyyəti araşdırmaq, mövcud problemləri aradan qaldırmaq, inkişafa nail olmaq məqsədilə müxtəlif təcrübələri öyrənmək və qanunvericiliyimizə gətirmək üçün ilkin addımdır.

Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev deyib ki, bu gün peşə birlikləri ilə bağlı fəaliyyət var. Sadəcə, mövcud ictimai münasibətlər qanunvericilik çərçivəsində tənzimlənmir. Bunu qanun formasına salıb təqdim etməyə ehtiyac var idi və biz bunu etdik. Bu qanun layihəsi həm dövlətin, həm də peşə birliklərinin maraqlarına uyğundur. Sənəddə deyilir ki, peşə birliklərində sahibkarlıq və ya peşə fəaliyyəti subyektlərinin üzvlüyü könüllüdür. Müxtəlif növ sahibkarlıq fəaliyyəti və ya peşə fəaliyyətini həyata keçirən subyekt bir neçə peşə birliyinin üzvü ola bilər. Peşə birliyinin yaradılmasının ümumi prinsipləri Mülki Məcəllə ilə müəyyən edilir. Birlik dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs statusunu əldə edir. Peşə birliyi tərəfindən onun dövlət reyestrindən çıxarılması haqqında ərizənin verilməsi, habelə qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında birlik ləğv oluna bilər. Peşə birliyinin idarəetmə orqanları onun üzvlərinin ümumi yığıncağı və idarə heyəti hesab olunur. Birlik öz fəaliyyəti ilə bağlı məlumatların kütləvi informasiya vasitələrində dərc olunmasını təmin edir. Layihədə peşə birliklərinin funksiyaları, hüquq və vəzifələri, onların üzvlərinin və vəzifəli şəxslərinin məsuliyyəti, intizam tənbeh tədbirlərinin tətbiqi, əmlakın formalaşma mənbələri ilə bağlı məsələlər yer alıb.

A.Quliyev bildirib ki, qanun layihəsi 4 fəsil, 17 maddədən ibarətdir. Bu qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, peşə birliklərinin statusunu, yaradılması və fəaliyyəti qaydasını müəyyən edir, müvafiq sahələr üzrə peşələrin inkişafını, peşə sahiblərinin qanuni maraqlarının qorunmasını təmin edir, peşə birliyi, onun üzvləri və üzvlərin mallarının (işlərinin, xidmətlərinin) istehlakçıları arasında yaranan münasibətləri tənzimləyir.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, Prezident İlham Əliyevin iqtisadi islahatlar kursu hüquq sisteminin təkmilləşdirilməsi ilə ayrılmaz surətdə bağlıdır. Bu gün Azərbaycanda kifayət qədər mükəmməl hüquq sistemi yaradılıb. Amma, eyni zamanda, ictimai münasibətlər də yerində dayanmır, getdikcə daha mürəkkəbləşir, onun yeni xüsusiyyətləri, yeni sahələr ortaya çıxır. “Peşə birlikləri haqqında” qanun layihəsinin hazırlanması zərurətdən yaranan bir addımdır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd edib ki, ölkəmizdə genişmiqyaslı islahatlar aparılır. Bu islahatların əsas hissəsi hüquqi islahatlardır. Qeyd olunub ki, “Peşə birlikləri haqqında” qanun layihəsi dünya təcrübəsinə uyğundur.

Müzakirələr zamanı çıxış edən deputatlar Fazil Mustafa, Məlahət İbrahimqızı, Qüdrət Həsənquliyev, Tahir Mirkişili, Vahid Əhmədov, Fəzail Ağamalı, Çingiz Qənizadə, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvləri Sahib Məmmədov, Əliməmməd Nuriyev, qeyri-hökumət təşkilatlarının təmsilçiləri Vüqar Bayramov, Tofiq Cahangirov, Yaşar Cəlilov, Nəriman Səfərli, Vergilər Nazirliyinin nümayəndəsi Anar Rzayev, Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri İmran Cümşüdov və digərləri layihə barədə fikirlərini bildirib, təkliflərini veriblər.

Layihənin müəllifi Azay Quliyev səsləndirilən fikirlərə münasibət bildirib, bəzi sual doğuran məqamlara aydınlıq gətirib.

Milli Məclis Sədrinin müavini, komitə sədri Bahar Muradova iclasa yekun vuraraq müzakirələrin səmərəli keçdiyini deyib. Bildirib ki, qanunu daha da zənginləşdirmək üçün söylənilən faydalı fikirlər nəzərə alınacaq, sənədin təkmilləşdirilməsi istiqamətində lazımi iş aparılacaq.

## Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin noyabr ayında Sumqayıtın şəhər statusu almasının 70 illiyi tamam olur.

Sumqayıt yarandığı dövrdən etibarən müasir sənaye şəhərinə çevrilmək istiqamətində qazandığı uğurların miqyasını ildənilə genişləndirərək parlaq inkişaf yolu keçmişdir. Özünün iri müəssisələr şəbəkəsi və müvafiq infrastrukturunu formalaşdıran şəhər qısa müddət ərzində ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınmış, eyni zamanda, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir.

Sumqayıtın tarixinin ən əlamətdar səhifələri xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin diqqət və qayğısı sayəsində hələ ötən əsrin 70-80-ci illərində Sumqayıtda xüsusən neft və kimya sənayesinin sürətli inkişafı üçün geniş imkanlar açılmış, zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni-yeni istehsal sahələri istismara verilmişdir.

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra Sumqayıt şəhəri özünün sosial-iqtisadi yüksəliş salnaməsini zənginləşdirməkdə davam etmişdir. Müvəffəqiyyətlə gerçəkləşdirilən dövlət proqramları və infrastruktur layihələri çərçivəsində “Sumqayıt Texnologiyalar Parkı” və “Sumqayıt Kimya Sənaye Parkı”, həmçinin digər mühüm obyektlər qurulmuşdur. Şəhərin iqtisadi strukturuna daxil olan kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma və elektroenergetika, eləcə də yüngül sənaye sahələri qabaqcıl texnoloji avadanlıqla təchiz edilmişdir. Şəhər əhalisinin yaşayış səviyyəsi və həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Sumqayıt şəhəri elmin, təhsilin və mədəniyyətin ümumi tərəqqisi işinə bu gün də layiqli töhfələr bəxş edir. Sumqayıt Dövlət Universiteti artıq respublikanın nüfuzlu ali təhsil ocaqlarındandır. Sumqayıt Dövlət Dram Teatrının ölkədə teatr sənətinin inkişafında özünəməxsus xidmətləri vardır.

Davamlı yeniləşən Sumqayıtın hazırkı sosial-iqtisadi mənzərəsi və elmi-mədəni həyatı Azərbaycanın müasir nailiyyətlərini özündə dolğun təcəssüm etdirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ölkəmizin dinamik sosial-iqtisadi yüksəlişinin təmin olunmasında Sumqayıt şəhərinin fəal iştirakını nəzərə alaraq **qərara alıram:**

1. Sumqayıt şəhərinin 70 illik yubileyi ölkədə geniş qeyd edilsin.

2. Sumqayıt Şəhər İcra Hakimiyyəti Sumqayıt şəhərinin 70 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

## Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə **qərara alıram:**

1. Ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu ilin martın 1-dən 16000 (on altı min) vahid artırılsın və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın:

2.1. bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu sərəncamın 1-ci hissəsi 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

## Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə **qərara alıram:**

1. Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlər aşağıdakı məbləğlərdə müəyyən edilsin:

1.1. Doktorantura pilləsi üzrə:
elmlər doktoru hazırlığı üzrə doktorantlara - 300 manat
fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 180 manat

1.2. ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:
adlı təqaüd alan tələbələrə - 170 manat
magistratura səviyyəsi üzrə:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 145 manat
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 120 manat
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 80 manat
bakalavriat səviyyəsi üzrə:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 130 manat
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 110 manat
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 75 manat

1.3. orta ixtisas təhsili müəssisələrində:
akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 75 manat
akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 60 manat
akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 50 manat

1.4. Peşə təhsili müəssisələrinin tələbələrinə - 50 manat.

2. Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə bu sərəncamın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.

3. Bu sərəncamın 1.1-ci və 1.4-cü bəndləri ilə müəyyən edilmiş təqaüdlər yalnız dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara və peşə təhsili müəssisələrinin tələbələrinə ödənilsin.

4. Müəyyən edilsin ki, təqaüdlərin ödənilməsi, doktorantura pilləsində, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçirilir.

5. “Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 988; 2015, № 11, maddə 1339; 2016, № 1, maddə 134; 2017, № 5, maddə 934; 2018, № 5, maddə 1022), 1-ci, 1-1-ci və 2-ci hissələri ləğv edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

7. Bu sərəncam 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2019-cu il*

# Dövlət Dumasında Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun görüşü keçirilib

Rusiya Federasiyası Dövlət Duması ilə Azərbaycan Respublikası Milli Məclisi arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə saziş imzalanmaq üçün hazırdır.

AZƏRTAC xəbər verir ki, RF Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov bu barədə Azərbaycan-Rusiya parlamentlərarası dostluq qrupunun görüşündə məlumat verib. L.Kalaşnikov ümidvar olduğunu bildirib ki, həmin sənəd Avrasiya ölkələri parlamentlərinin spikerlərinin bu il Astanada keçiriləcək müşavirəsi çərçivəsində imzalanacaq. O deyib: “Biz bu məsələyə böyük əhəmiyyət veririk. Duma şurasında həmin komissiyaların məsul katibləri təsdiq edilib. Onlar hökumətlərarası komissiyaların üzvləridir”.

Deputat daha sonra bildirib ki, hazırda Xəzəryanı ölkələrin spikerlərinin Xəzər regionunun inkişafı problemlərinə həsr edilmiş konfransının keçirilməsi məsələsi müzakirə edilir. Həmin görüşə hazırlıq üçün Həştərxanda müvafiq komitələrin üzvlərinin müşavirəsi keçiriləcək.

Azərbaycan Milli Məclisinin deputatı Əli Hüseynli qeyd edib ki, Azərbaycan parlamentinin rəhbərliyi RF Dövlət Duması ilə əməkdaşlıq məsələsinə xüsusi əhəmiyyət verir. O vurğulayıb ki, parlamentarilər iki ölkənin dövlət başçıları və hökumətləri arasında mövcud dostluq münasibətlərini daha da möhkəmlətməlidirlər. Deputatın sözlərinə görə, ölkələrimizin hökumətləri arasında müəyyən razılaşmaların həyata keçirilməsi qanunvericilik səviyyəsində dəstəklənməlidir. Əli Hüseynli deyib: “Biz Dövlət Dumasının sədri Vyaçeslav Volodinin yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə təklifini yüksək qiymətləndiririk. Bilirik ki, Dövlət Duması belə komissiyaları əməkdaşlığı daha da möhkəmlətmək və inkişaf etdirmək niyyətində olduğu ölkələrlə yaradır”. O əmin olduğunu bildirib ki, bu komissiya parlamentarilər arasında birbaşa əlaqələrin inkişafına şərait yaradacaq. Əli Hüseynli daha sonra qeyd edib ki, bəzi hallarda təxribatçı hərəkətlər və bəyanatlar müşahidə olunur. O deyib: “Biz belə halların kökünü kəsməliyik. Azərbaycan Cənubi Qafqazda Rusiyanın etibarlı müttəfiqidir. Elə etməliyik ki, parlamentarilərin Dağlıq Qarabağa qanunsuz səfərləri bir daha təkrarlanmasın”.

L.Kalaşnikov cavab verib ki, Duma məkanından münasibətlərin korlanması üçün istifadə edilməsinə heç vaxt imkan verməyəcək. O deyib: “Mənim fikrimcə, bəzən anlaşılmazlıq üzündən belə hallar baş verir. Mən həmin insanlarla söhbət etmişəm. Lakin biz belə faktlara diqqət yetirməliyik, çünki belə hallar bizim münasibətlərimizə ziyan vurur”.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu RF iqtisadi inkişaf naziri Maksim Oreşkinin bu yaxınlarda Azərbaycana səfəri barədə söhbət açıb. O qeyd edib ki, həmin səfər çərçivəsində Rusiya-Azərbaycan nümayəndə heyəti dövlət sərhədində avtomobil körpüsü tikintisinin gedişi ilə tanış olub. Səfir vurğulayıb ki, Azərbaycan tərəfi Bakıdan Rusiya sərhədinə qədər yeni yol çəkir. P.Bülbüloğlu deyib: “Maksim Oreşkin Azərbaycan Prezidenti ilə görüşdə sərhəd boyunca yerləşən üç buraxılış məntəqəsinin təkmilləşdirilməsi üzrə aparılan işlərdən söhbət açaraq bildirib ki, gömrük prosedurları “bir pəncərə” prinsipi üzrə həyata keçirilir. Yəni, insan 10 dəqiqə ərzində sənədlərini alıb yola düşə bilər. Düşünürəm ki, sərhəd zonasının sakinləri üçün sərhəd rejimi qaydalarının sadələşdirilməsi məsələsinə parlamentlər səviyyəsində baxılmalıdır”.

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Dövlət Dumasının deputatı Dmitri Savelyev ikitərəfli münasibətlərin möhkəmlənməsində parlament diplomatiyasının mühüm rol oynamasını vurğulayaraq, Rusiya və Azərbaycan regionlarında birgə tədbirlər keçirilməsini təklif edib.

Akademik Arif Paşayev - 85

Elmin inkişaf tarixi belə bir həqiqətə şahidlik edir ki, onun müxtəlif mərhələlərində əldə olunan bütün uğur və nailiyyətlər, sosial tərəqqini stimullaşdıran konseptual baxışlar, sivilizasiyanı irəliyə doğru hərəkət etdirən elmi kəşflər, innovativ yeniliklər bilavasitə yüksək mənəvi-əxlaqi keyfiyyətləri və dərin intellekti özündə birləşdirən şəxsiyyət fenomeni ilə bağlıdır. Məhz istedadlı, kreativ, parlaq zəkaya malik, aydın vətəndaş-ziyalı mövqeyi ilə seçilən alim şəxsiyyəti olduğu halda, elmin bu və ya digər sahəsində xüsusi rol oynayan məktəblər yaranır, həmin məktəblərin timsalında şəxsiyyətin cəmiyyətdəki mənəvi-intellektual təsir imkanları onilləri, yüzilləri əhatə edərək uzunmüddətli və fasiləsiz xarakter alır. Çox sevindirici haldır ki, qədim və zəngin elmi ənənələrə malik Azərbaycan elmində, xüsusən onun ən parlaq dövrü hesab olunan XX əsrdə belə alim-şəxsiyyətlər kifayət qədərdir. Onların sırasında Azərbaycanda fizika, texnika və aerokosmika elminin inkişafında müstəsna rol oynamış, respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətlər göstərmiş görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı, fəal ictimai xadim akademik Arif Mir Cəlal oğlu Paşayevin adı xüsusi yer tutur.



# İntellektual zirvədə

Akademik Arif Paşayev XX əsr Azərbaycan humanitar-elmi və ədəbi düşüncəsinin görkəmli nümayəndəsi, tanınmış yazıçı, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmışdır. Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim və istedadlı yazıçı olmaqla yanaşı, eyni zamanda yüksək mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olan bir şəxsiyyət olmuşdur. Onun daxili aristokratizmi, davranışındakı sanbal, başqalarına münasibətdə sakral-mənəvi dəyərlərə bağlılıq heç bir halda "sovet ziyalısı" qəlibinə sığmamışdır. Məhz bu dəyərlərin daşıyıcısı olmağın nəticəsidir ki, "Mir Cəlal bütövlüyü", "Mir Cəlal xeyirxahlığı", "Mir Cəlal dürüstlüyü", "Mir Cəlal sözü"... ədibin öz sağlığında elmi və ədəbi ictimaiyyət arasında, ümumiyyətlə cəmiyyətin müxtəlif sferalarında şəxsiyyət fenomeninin meyarına, etalonuna çevrilmişdir.

"Ot kökü üstə bitər", - deyiblər. Akademik Arif Paşayev Mir Cəlal müəllimin övladı olaraq bu ailənin mənəvi və intellektual ənənələrini ləyaqətlə davam etdirmişdir. Mir Cəlal müəllimin qürurla və uzaqgörənliklə söylədiyi "Mənim ən böyük əsərim ailəmdir" - fikri bu ailənin timsalında öz parlaq təsdiqini tapmışdır. Məhz belə bir şəxsiyyətin tərbiyəsinin nəticəsidir ki, Arif Paşayev insanlara münasibətdə yüksək mədəniyyət, təmənnasızlıq və xeyirxahlıq ənənəsini yaşatmış, onun fəaliyyətinin əsas prioritetlərini elm, təhsil və yüksək mənəvi dəyərlərə sadiqlik təşkil etmişdir. Müstəqil dövlətimizin siyasi və ictimai həyatında, elm və təhsildə təkrarolunmaz söz sahibi olan bu nəslin nümayəndələri Mir Cəlal müəllimin "Mənim ən böyük əsərim ailəmdir" ifadəsinə qoyduğu mənanın sərhədlərini Azərbaycan sərhədlərinə qədər genişləndirir, əsl ədibə məxsus olan və yalnız illər keçdikcə sirrini açan həqiqətə çevirirlər.

Akademik Arif Paşayevin həyat bioqrafiyası olduqca çoxşaxəli və zəngindir. Onun keçdiyi yol məna və dəyəri ilə xüsusilə seçilir. O, hələ gənclik illərindən rahatlığını axtarışlarında tapıb. Bir gənc olaraq elm üçün ürəyinin qapıları açıq, sevgisi dəniz qədər geniş olub. Yuxusuz gecələrin mütaliəsi nəticəsində elmin həqiqət yolu öyrənildikcə şirinləşib, böyük arzuları həyatında reallıqlara çevrilib. Bir anlığa dünyada düşüncə sahiblərinin fikirlərini xatırlamaq yerinə düşərdi. Dahi Viktor Hüqo yazırdı: "Tərbiyə - nəfslə, təhsil - biliklə bağlıdır. İnsan yetkinləşdikcə bu iki proses bir-birini tamamlayır", Onore de Balzak isə "Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq lazımdır" - demişdir. Odur ki, aldığı tərbiyə ilə həyatını elmdə və təhsildə görən akademik Arif Paşayev çətin yolları düz getmək üçün daim narahatlıqda və axtarışda olmuşdur.

O, Odessa Elektrotexniki Rabitə İnstitutunda ali təhsil almış, əmək fəaliyyətinə 1957-1958-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) laborant vəzifəsində başlamış, Azərbaycan Milli Elmlər Akademiyasında davam etdirmişdir: 1958-ci ildə AMEA Astrofizika sektorunda kiçik elmi işçi, 1959-cu ildən AMEA Fizika İnstitutunda kiçik elmi işçi (1959-1961), böyük elmi işçi (1966-1971) və laboratoriya müdiri (1971-1996) vəzifələrində çalışmışdır. 1966-cı ildə "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi, 1978-ci ildə "Yarımkeçiricilərin tədqiqində qeyri-dağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiq perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini almışdır. Alim 1993-1997-ci illərdə fotoelastik mühitlərdə akustooptik qarşılıqlı təsirin xüsusiyyətlərini tədqiq edərək, bu effekti bir sıra radiofizika və radiotexnika məsələlərinin həllinə tətbiq etmişdir. Arif Paşayev 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur.

Fizika sahəsində əldə etdiyi nailiyyətlərinə görə Arif Paşayev 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Arif Paşayevin multidissiplinar xarakterli elmi fəaliyyəti fizika, texnika və aerokosmika elmlərinin mühüm prioritet istiqamətlərini özündə birləşdirir. O, yarımkeçirici materialların mühüm elektrofiziki parametrlərini (keçiricilik, yükdaşıyıcıların yaşama müddəti, yürüklüyü və s.) ölçmək məqsədilə yüksək tezlikli cərəyanlardan istifadə etməklə materialı zədələmədən kontaktsız ölçü üsullarının elmi əsaslarını yaratdı, müxtəlif təyinatlı çeviricilər sahəsində yeni elmi istiqamətin əsasını qoydu.

Arif Paşayevin elmi-tədqiqat işlərinin digər bir hissəsi fotoelastik material kimi daha sadə hazırlanma texnologiyasına malik olan kristallik kvars əsasında akustooptik modulyatorun işlənməsidir. O, fotoelastik mühitlərdə akustooptik qarşılıqlı təsirin xüsusiyyətlərini tədqiq edərək, bu effekti bir sıra radiofizika və radiotexnika məsələlərinin həllinə tətbiq etmişdir. Alim siqnalların zaman təhriflərinə korreksiyasının, çevrilməsinin, tezlik modulyasiyalı siqnalların izləyici qəbulunun akustooptik üsullarını və bu üsulları reallaşdıran qurğuları sintez etmiş, onların parametrlərini araşdırmışdır. Alınmış nəticələr bir sıra xarici ölkələrin nüfuzlu elmi nəşrlərində dərc edilmişdir. O, müxtəlif elektromaqnit sahələrinin keçirici mühitlə qarşılıqlı təsirinin tədqiqi nəticəsində maşınqayırma məmulatlarına cərəyan burulğanları ilə nəzarət üçün yeni üsullar və qurğular yaratmışdır. Dəqiq, inteqral miniatür çeviricilərin, temperatur, təzyiqə, nəmliyə, gücə, təcilə, aşınmaya və titrəyişə həssas elementlərin yaradılması sahəsində də Arif Paşayev mühüm nəticələr əldə etmişdir. Bu elementlər gəmiqayırmada, neftmaşınqayırmada, müdafiə, tibb sənayelərində və digər sahələrdə geniş tətbiq edilir.

Akademik Arif Paşayev respublikamızda yeni perspektivli elm sahələrinin inkişafını daim diqqətdə saxlamış, təşəbbüsü və dəstəyi hesabına süni peykləri ilə kosmik ölkələr sırasına daxil olan dövlətimizdə Milli Aviasiya Akademiyasının, AMEA-nın Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin birgə səyləri nəticəsində Fizika İnstitutunun nəzdində "Kosmos və yerətrafı kosmik fəzanın fizikası" laboratoriyası yaradılmışdır. Görkəmli fizik Milli Aviasiya Akademiyası, AMEA-nın Təcrübə-Sənaye Zavodu və "Zeytun" Elm-İstehsalat Müəssisəsi ilə birgə yüksək elektrik izolyasiyalı, korroziyaya və rütubətə davamlı, səs dalğalarının yayılması üçün şəffaf kipləndirici olan yeni poliefiruretan əsaslı lak-kompaundun, aviasiya təyinatlı aşağı temperaturlu sürtkü materialları və hidravlik mayelərin, həllедicilərin istehsalı texnologiyasını işləmişdir. Alınan nailiyyətlərin orijinallığı Azərbaycanın və Rusiya Federasiyasının patentləri ilə təsdiqlənmişdir.

Akademik Arif Paşayev səmərəli elmi və elmi-təşkilati işlə yanaşı, olduqca faydalı pedaqoji fəaliyyətlə də məşğuldur. Uzun müddətdir ki, rektoru olduğu Milli Aviasiya Akademiyası respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmiş, burada tədris prosesi və elmi-tədqiqat işləri yüksək səviyyədə təşkil olunmuş, yeni müasir kafedra və ixtisaslar açılmışdır. Bütün bunların nəticəsində Akademiya Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir. Müstəqil respublikamız üçün son dərəcə vacib kadrlar hazırlayan Milli Aviasiya Akademiyasında təhsilin səviyyəsinin yüksəldilməsi üçün onun şəxsi nəzarəti, kollektivdə sağlam elmi-pedaqoji mühitin yaradılması və gündəlik qayğısı, yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsinə göstərdiyi diqqət qazanılan nailiyyətlərin sırasındadır. Rəhbərlik etdiyi akademiyanın nəzdində yaratdığı Elmi-Tədqiqat Aviasiya İnstitutunda Xüsusi Konstruktor Bürosunu və Təcrübi-Sınaq Bölməsini özündə birləşdirən Elmi-İstehsalat Birliyi aviasiya sahəsində ən yüksək səviyyədə tədqiqatlar aparmağa imkan verir. Bu da elmi nəticələrin tətbiqini sürətləndirməyə olduqca əlverişli şərait yaradır. Əbəs yerə deməmişlər ki, elm sərkərdə, təcrübə isə onun əsgəridir.

Arif Paşayev 300-dən artıq elmi əsərin müəllifidir. Onun çoxsaylı monoqrafiya və ixtiralarında əks olunan fundamental elmi-texniki nəticələri, yüksəkixtisaslı elmi kadrların hazırlanmasındakı göstəriciləri, faydalı elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti, Azərbaycanda ali aviasiya təhsilinin müasir səviyyədə təşkili müstəsna xidmətlərindəndir.

Elm yolunda yorulmaz alim Arif Paşayev Azərbaycan Respublikasının "Şöhrət", "Şərəf", "İstiqlal" ordenləri ilə təltif olunmuş, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, akademik Yusif Məmmədəliyev adına medal, "SSRİ-nin ixtiraçısı" fəxri adlarına layiq görülmüş, Azərbaycan Mühəndislər Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislər Akademiyasının, Beynəlxalq Nəqliyyat Akademiyasının, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının və Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki seçilmişdir.

Həyatını elmə bağlayaraq bu yola sadiq qalan, elmə sədaqətlə xidmət edən alim fədai bir şəxsiyyətə çevrilmişdir. Təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda onu görkəmli alim, təşəbbüskar təşkilatçı, başlıcası isə qayğıkeş bir insan kimi tanıyırlar. Onun nadir iş qabiliyyəti, yaradıcılıq enerjisi və aktiv mövqeyi müstəqil Azərbaycan vətəndaşları üçün örnəkdir.

Akademik Arif Paşayevin məxsusi müdrikliyi, insanlara qarşı xeyirxahlığı, tükənməz enerjisi və nikbinliyi uca görünən zirvənin varlığıdır. Onu tanıyan hər kəs Vətənə təmənnasız xidmətin, qarşıya qoyulan məqsədə çatmaq bacarığının, fədakarlığın, yüksək ideallara sadiqliyinin şahididir. Bütün bunlar ani uğurlar deyil, gərgin əməyin, yuxusuz gecələrin, elmi axtarışların məntiqinin işığı və nəticəsi, yuxarıda qeyd olunan yüksək dövlət mükafatları, fəxri adları həyatının parlaq qələbəsi olmuşdur. Ətrafa saçılan bu işıq bizlərdə inam yaradır ki, onun mənbəyi olan görkəmli alim və pedaqoq hələ uzun illər xalqımıza, Vətənimizə dəyərli töhfələr verəcəkdir. Məhz bu ümdə keyfiyyətlərinə görə Arif Mir Cəlal oğlu xalqın dərin hörmətini qazanan nadir şəxsiyyətlərdəndir.

O, yüksək elmi-praktiki, pedaqoji və yaradıcılıq potensialına malik olmaqla yanaşı, vətəndaşlıq, vətənpərvərlik hissləri ilə yaşayıb-yaradan, ictimai işlərdə yorulmadan əmək sərf edən, gənc nəslin təlim-tərbiyəsinə, onların yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarına xüsusi diqqət göstərən qayğıkeş rəhbər, səmimi insan və xeyirxah şəxsiyyətdir.

Sosial təsisat olaraq ailənin çox həssas mərhələyə qədəm qoyduğu müasir cəmiyyətdə Arif Paşayevin milli mentalitetlə ümumbəşəri dəyərlərin daşıyıcısı olan ailəsi olduqca gözəl bir örnəkdir. Onun tərbiyəsini almış və ölkəmizin layiqli vətəndaşları olan övladları, Mehriban xanım Əliyeva və Nərgiz xanım Paşayeva milli dövlət quruculuğunda, cəmiyyətin sosial-mədəni həyatında, elmin, təhsilin inkişafında yaxından iştirak edir, xüsusən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, qədim və zəngin Azərbaycan mədəniyyətinin təbliği istiqamətində xüsusi səy göstərirlər.

Akademik Arif Paşayevin ömür yolu elmə, ürfana, mədəniyyətə, əxlaqa səcdənin ən böyük nümunələrindən biridir. Belə bir fasiləsiz və səmimi "ibadətin" nəticəsidir ki, bu dəyərlər onun şəxsiyyətini öz mənəvi səmasının ucalıqlarına qaldırmışdır. Bu mənəvi ucalığın zirvəsinə yüksəlmiş Arif Mir Cəlal oğlu Paşayev bu günlərdə fiziki ömrün də 85 illik zirvə məqamına qədəm qoyur. Belə bir əlamətdar gündə Arif Paşayevi elmi ictimaiyyət adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Arzu edirəm ki, onun bu yubileyi intellektdən, zəhmətdən, həmçinin vətən və xalq sevgisindən yoğrulmuş elmi, pedaqoji və ictimai fəaliyyətinin yeni, daha parlaq və məhsuldar mərhələsinin başlanğıcı, növbəti zirvələrə doğru uçuşun start məqamı olsun!

***Akif ƏLİZADƏ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

# Sabitliyi pozmaq istəyənlər qarşılarında xalqı görəcəklər

Xalq təsərrüfatının bütün sahələrində qazandığımız böyük nailiyyətlər dünyanın hər yerində böyük əks-səda doğurur, mötəbər kürsülərdən inamla səsləndirilir.

Son 15 ildə qazanılan uğurlar, sosialyönümlü siyasətin davam etdirilməsi, bunun ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi xalq ilə dövlət arasında qarşılıqlı inamın artması hər bir ölkə vətəndaşında haqlı qürur doğurur.

İndi elə bir sahəni təsəvvürə gətirmək mümkün deyil ki, ölkə rəhbərinin diqqətindən kənarda qalsın. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində ölkədə möhtəşəm dəyişikliklər baş vermiş, regionların sosial-iqtisadi inkişafı haqqındakı dövlət proqramları uğurla yerinə yetirilmiş, iqtisadiyyatın artımı, infrastrukturun yenilənməsi, şəhər və kəndlərin abadlaşdırılması, yeni yolların, körpülərin, əzəmətli binaların tikintisi geniş vüsət almışdır.

Sənayenin, nəqliyyatın, kənd təsərrüfatının durmadan inkişaf etdirilməsi, hər tərəfdə abadlıq və mədəni quruculuq işlərinin geniş vüsət alması adamlarımızın, birinci növbədə qaçqın və məcburi köçkünlərimizin sosial rifahının, onların mədəni-məişət şəraitinin yaxşılaşdırılmasını ön plana çəkmişdir.

Ölkəmizdə qazanılan bu böyük uğurlar, əldə olunan nailiyyətlər heç də hamı tərəfindən birmənalı qarşılanmamışdır. Bunlar işlərimizə adi gözlə deyil, qara eynəklə baxan bədniyyətli adamların, antiazərbaycan ab-havası ilə yaşayıb yaxşı işlərimizə kölgə salmağa çalışanların gözlərini qamaşdırır. Şübhəsiz ki, bu sözlərin əsas düşmənimiz olan ermənilərə və daim onlara havadarlıq edən erməniпərəst qüvvələrə aid edilməsi heç kəsdə etiraz doğurmamalıdır.

Qarı düşməndən dost olmaz, deyib müdrik ata-babalarımız. Məhz elə buna görə də düşmənlərimizin yaxşı işlərimizə qısqanclıqla yanaşması heç də təəccüblü deyil. Təəccüblüsü özümüzünkülərin özümüzə düşmən kəsilməsidir.

Kimdir bunlar? Xarici ağalarının pulu ilə maliyyələşən ifrat radikal müxalifətçilər! Vətən sevgisindən, Vətən məhəbbətindən, Vətən təəssübkeşliyindən məhrum olub bilə-bilə düşmən dəyirmanına su tökənlər! Hər vasitə ilə xaricdəki ağalarının diktəsi ilə küçə mitinqləri keçirməklə sabitliyimizin pozulmasına çalışan, bu yolla hakimiyyətə gəlmək arzusunda olan AXC-Müsavat tör-töküntüləri, keçmişin yalançı meydan qəhrəmanları!..

Görəsən, belələri niyə ibrət götürməyiblər keçmişin dərslərindən? Məgər xalqın onları yaxşı tanıdığını, yalançı vədlərini, adamları süd gölündə üzdürəcəklərini, küçələrə başdan-başa mərmər döşəyəcəkləri haqqındakı xülyalarını nə üçün yadlarına salmaq istəmirlər?

Niyə dərk etmək istəmirlər ki, artıq bu xalq əvvəlki xalq deyil. Ağı qaradan yaxşı seçir daha. Sabitliyi pozanlar bilməlidirlər ki, qarşılarında xalqı görəcəklər.

Azərbaycanı qarşıdakı illərdə daha böyük uğurlar gözləyir. Xalqımız daha əzəmətli, daha böyük uğurlara imza atmaq arzusundadır. Məqsəd gələcəyə yüksək sürətlə addımlamaqdır. Xalqımızın uğur karvanı düz yoldadır, heç bir yabançı səs, heç bir quru və boş vəd onu



öz yolundan sapdıra bilməz! Çünki bu yolun məqsədi aydın, məramı düzdür.

Qoy düşmənlərimiz də, onların havadarları da bunu yaxşı bilsinlər. Bilsinlər ki, möhtərəm Prezident, Ali Baş Komandan, cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində işğal altında olan bütün torpaqlarımız azad ediləcək, üçrəngli bayrağımız Qarabağın mərkəzində - Şuşada dalğalanacaq. O gün isə uzaqda deyil.

***Qədir TƏRTƏRLİ,***
***Tərtər Rayon Ağsaqqallar Şurasının sədri***

# Ağdam dövlət qayğısının mərkəzində yer alır





Ağdam rayonunun fəallarının 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr edilmiş geniş tərkibdə yığıncağı maraqlı və aktual təhlillərlə diqqət çəkdi. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun hesabat məruzəsində ötən bir il ərzində rayonun sosial-iqtisadi inkişaf sahəsində qazandığı uğurlardan ətraflı danışılmış, bu inkişafı şərtləndirən davamlı dövlət qayğısı minnətdarlıqla vurğulandı.

2018-ci il ağdamlılar üçün unudulmaz tarixi hadisələrlə yadda qaldı. Bu baxımdan ötən ilin noyabrında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Ağdama səfəri xüsusilə diqqət çəkir. Ali qonaqlar səfər çərçivəsində əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən və Qarabağın muğamsevərlərinə çox dəyərli töhfə olan Ağdam Muğam Mərkəzinin, "Azərxalça" ASC-nin Ağdam rayon filialının və Qarabağ Atçılıq Kompleksinin açılışlarında iştirak etməklə rayon sakinlərinin sevincinə sevinc qatmış, bu cəbhə bölgəsində sözün həqiqi mənasında bayram əhvali-ruhiyyəsi yaratmışlar. Rayon ictimaiyyətinin nümayəndələri ilə keçirilən səmimi görüşlər hələ də xatirələrin sirin və unudulmaz yadigarı olaraq qalır.

Yığıncaqda minnətdarlıqla vurğulandı ki, dövlət qayğısının mərkəzində yer alan Ağdam son illər dinamik sosial-iqtisadi inkişaf yolundadır. Rayonun inzibati mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsi bu gün göz oxşayan yaraşığı, abad görkəmi, malik olduğu müasir tələblərə cavab verən sosial infrastrukturu ilə şəhəri xatırladır. Bu cəbhə bölgəsinə yönəlik dövlət qayğısının əsasında sosialyönümlü layihələr üstünlük təşkil edir. Təbii ki, məqsəd bölgə əhalisinin həyat şəraitini daha da yaxşılaşdırmaq, insanların sosial ehtiyaclarının yüksək səviyyədə ödənilməsini təmin etməkdir. Ağdama gəlişi zamanı rayon əhalisinin ehtiyaclarını, onları narahat edən problemləri yerində öyrənən Prezident İlham Əliyev səfərdən dərhal sonra xüsusi bir sərəncam imzaladı. Xatırladaq ki, rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrinin erməni silahlı birləşmələrinin iriçaplı silahlarından və artilleriya qurğularından intensiv atəşə məruz qalması nəticəsində mülki əhaliyə böyük həcmdə ziyan dəymişdir Dövlət başçısının imzaladığı sərəncam bu ziyanın məhz dövlət hesabına ödənilməsini təmin etmək məqsədi daşıyırdı. Rayonun 19 yaşayış məntəqəsində əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün 121 fərdi yaşayış evinin bərpası məqsədilə Prezidentin Ehtiyat Fondundan Ağdam Rayon İcra Hakimiyyətinə 3 milyon manat vəsait ayrılmışdır. Hazırda həmin evlərin bərpası işlərinə başlanılmışdır.

Hesabat ilində rayondaxili yolların müasir tələblər səviyyəsində yenidən qurulmasına böyük önəm verilmişdir. 29 min nəfər əhalinin yaşadığı 1 qəsəbəni, 10 kəndi və 3 məcburi köçkün qəsəbəsini birləşdirən, uzunluğu 25,3 kilometr olan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun istifadəyə verilməsi bölgə əhalisinin böyük razılığına səbəb olmuşdur.

Dövlət başçısının müvafiq sərəncamına əsasən, Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Rayon ərazisində yol infrastrukturunun yaxşılaşdırılması işləri müvəffəqiyyətlə davam etdirilir. Bu günlərdə Kolqışlaq-Mirəşəlli-Çıraqlı avtomobil yolunun çəkilişinə başlanmışdır.

Rayonun yaşayış məntəqələrinin qazlaşdırılması artıq tamamilə başa çatdırılmışdır. Ötən ilin noyabr ayında Yeni Ergi qəsəbəsinə də təbii qaz verilərək bu zəruri sosial layihə uğurla yekunlaşdırılmışdır. İndi razılıqla qeyd etmək oalr ki, rayon əhalisinin təbii qaz, içməli su, elektrik enerjisi ilə təminatında ciddi bir problem yoxdur.

Hesabat yığıncağında qeyd edildi ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Ağdam rayonu üçün 14 tədbir nəzərdə tutulmuşdur. Qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılmışdır. Proqram çərçivəsində həyata keçirilən məqsədyönlü tədbirlər hesabına rayon iqtisadiyyatı xeyli güclənmiş, əhalinin güzəranı daha da yaxşılaşmışdır. Dövlət Proqramının icrasına uyğun olaraq təkcə 2018-ci il ərzində rayonda 4595 yeni iş yeri açılmışdır ki, bunun da 625-i daimidir. Keçən il ümumi məhsul istehsalının həcmi 166 milyon 848,8 min manat olmuşdur. Bu, 2017-ci illə müqayisədə 29.2 milyon manat, yaxud 21,3 faiz çoxdur. İl ərzində sənaye məhsulunun ümumi həcmi 12.9 milyon manat, kənd təsərrüfatı məhsulunun ümumi həcmi isə 100 milyon manata yaxın olmuşdur. 2018-ci ildə tikinti-quraşdırma işlərinin həcmi isə 8.9 milyon manat təşkil etmişdir.

Respublikamızın hər yerində olduğu kimi, Ağdamda da sahibkarlığın inkişafına xüsusi qayğı göstərilir. Yığıncaqda qeyd olundu ki, hesabat ilində 432 nəfər fiziki şəxs qeydiyyatdan keçmişdir. Onlar biznesin xidmət, ticarət, kənd təsərrüfatı, nəqliyyat və emal sahələrində çalışırlar. Rayonda əhalinin maddi rifah halının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, məhsul bolluğunun təmin edilməsi üçün sahibkarlığın inkişafına xüsusi qayğı göstərilir, əlverişli şərait yaradılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir ki, məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 84,6 faiz, dövlət sektoru isə 15,4 faiz təşkil edir. İqtisadiyyat Nazirliyinin xətti ilə 2018-ci ildə 12 layihə həyata keçirilmiş, 51 yeni iş yeri açılmış, 600 min manat həcmində güzəştli kredit verilmişdir.

Yığıncaqda təhsil, səhiyyə, mədəniyyət sahələrində görülən işlər də ətraflı təhlil edildi. Torpaqlarının dörddə üç hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş bu cəbhə bölgəsində vətənpərvər, yüksək intellektual səviyyəyə malik yeni nəsil yetişdirilməsinə böyük önəm verilir. Bu sahədə orta ümumtəhsil müəssisələrinin üzərinə son dərəcə məsul və şərəfli vəzifə düşür. Ağdamda 135 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Gənc və yeniyetmələrin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi prosesində rayonun pedoqoji kollektivi Təhsil Nazirliyi və rayon icra hakimiyyəti tərəfindən qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Sevindirici haldır ki, ağdamlı məzunlar hesabat ilində yaxşı nəticələr əldə etmişlər. Ali məktəblərə 577 nəfər qəbul olunmuş, onlardan 42 nəfəri 600-700 arası, 84 nəfəri isə 500-600 arası bal toplamışdır. 6 sentyabrda Quzanlı qəsəbə mədəniyyət evində rayon icra hakimiyyətinin və təhsil şöbəsinin təşkilatçılığı ilə keçirilən görüşdə yüksək bal toplayıb tələbə adı qazanan məzunlar mükafatlandırılmışdır.

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər hesabat ilində müvəffəqiyyətlə davam etdirilmişdir. Dövlət başçısının sərəncamı ilə rayonun Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik tam orta məktəbin yeni binasının tikintisinə başlanmış, Quzanlı qəsəbəsi ərazisində isə 96 şagird yerlik modul tipli tam orta məktəbin tikintisi başa çatmaq üzrədir.

Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı sahəsində ötən ilin yekunları qənaətbəxşdir. Prezident İlham Əliyevin sərəncamına əsasən, rayonun müxtəlif ərazilərində 43 ədəd subartezian quyusunun qazılması kənd əməkçilərində böyük razılıq doğurmuşdur. Keçən il 52.160 ton taxıl, 5.822.2 pambıq, 17,1 ton barama, 98.469 ton tərəvəz, 5923 ton kartof, 20.204.5 ton şəkər çuğunduru, 4.470 ton ət, 35.866 ton süd, 13.2 milyon ədəd yumurta istehsal olunmuşdur.

Ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına böyük önəm verilir. Pambıqçılıqda ötən ilin nəticələri ilə razılaşmayan kənd əməkçiləri bu gəlirli sahəni yeni ildə inkişaf etdirmək əzmindədirlər. Bu il 2.500 hektar sahədə pambıq əkmək nəzərdə tutulmuşdur. Bu məqsədlə artıq 2320 hektar sahədə şum aparılmışdır. Hazırda qış aratının aqrotexniki tələblər əsasında aparılmasına ciddi fikir verilir.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov hesabat ilində rayonun sosial-iqtisadi həyatının müxtəlif sahələrində yol verilmiş nöqsanları da geniş təhlil edərək bildirdi ki, hər kəs, hər bir kollektiv tapşırıqların icrasına məsuliyyətlə yanaşmalı, etibar və etimaddan sui-istifadəyə yol verməməlidir.

Yığıncaqda yeni ildə qarşıda duran vəzifələrdən də ətraflı bəhs edildi. Qeyd olundu ki, Üçoğlan kənd-Səfərli qəsəbə, Ağcabədi rayonu Muğanlı kəndi və Ergi qəsəbə avtomobil yolunun yenidən qurulması, bir çox yaşayış məntəqələrində kəndarası asfalt yollarının salınması, əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsi üçün yeni subartezian quyularının qazılması, Sənaye Məhəlləsinin inşasına nail olunması yeni ilin vəzifələri sırasında yer alır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# "Xocalı - şahidlərin gözü ilə" sənədli-tarixi kitabı ingilis və rus dillərində nəşr olunub

"Xocalı - şahidlərin gözü ilə" sənədli-tarixi kitabı ingilis və rus dillərində nəşr olunub.

AZƏRTAC xəbər verir ki, kitabda Xocalı soyqırımının canlı şahidlərinin xatirələri toplanıb.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, redaktoru "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, buraxılışa məsul Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, tərtibçisi isə "Azərbaycan" qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlidir.







Kitab ingilis və rus dillərinə Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən tərcümə olunaraq nəşr edilib.

"Xocalı şahidləri danışır" kitabı professor Əli Həsənovun "Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" adlı məqaləsi ilə başlayır. Məqalədə XX əsr ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə və soyqırımı cinayətlərindən, ölkəmizə qarşı ərazi iddialarından bəhs olunur.

Bu nəşrlərin dünyanın bir çox ölkələrində, beynəlxalq kitab sərgilərində təqdimatlarının təşkil olunması, xarici universitetlərə, kitabxanalara, eləcə də kütləvi informasiya vasitələrinə çatdırılması nəzərdə tutulur.

"Xocalı - şahidlərin gözü ilə" sənədli-tarixi kitabının nəşri Xocalı soyqırımının tanıdılması, bu istiqamətdə araşdırmaların aparılması, faciə ilə bağlı xatirələrin gələcək nəsillərə ötürülməsi, yaddaşların təzələnməsi baxımından önəmli addımdır.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Göygöldə vətəndaşları qəbul edib

Fevralın 14-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov Göygöl rayonunda Gəncə, Naftalan və Mingəçevir şəhərlərindən, həmçinin Goranboy, Göygöl, Daşkəsən və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun keçirilən qəbulda SHXÇDX-nin rəisi vətəndaşların müraciətlərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verib.

Qırx nəfərin iştirak etdiyi qəbulda vətəndaşlar əsasən SHXÇDX-yə həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

***AZƏRTAC***

# "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci beynəlxalq elmi konfrans keçirilib

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Sosial və İqtisadi İnkişaf qurumunun (Economic Social Development - ESD) təşkilatçılığı ilə "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci beynəlxalq elmi konfrans keçirilib.





"Park Inn" hotelində təşkil olunan beynəlxalq konfransın açılış mərasimində təşkilatçılarla yanaşı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi, Auditorlar Palatası, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və digər dövlət qurumlarının rəhbər şəxsləri, millət vəkilləri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri iştirak ediblər.

Beynəlxalq konfransda açılış nitqi ilə çıxış edən UNEC-in Elm və innovasiyalar üzrə prorektoru, professor Sakit Yaqubov, universitetin rektoru, professor Ədalət Muradovun salamlarını konfrans iştirakçılarına çatdırıb. S.Yaqubov Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) adlanan 17 məqsədi və bu məqsədlərə uyğun olaraq müəyyən edilmiş 169 hədəfi özündə birləşdirən "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi" razılaşmasına qoşulduğu barədə konfrans iştirakçılarına məlumat verib. Bildirib ki, alimlərin də bu təşəbbüsə dəstək olmasının vacibliyi nəzərə alınaraq, UNEC və ESD (Economic Social Development - Sosial İqtisadi İnkişaf) təşkilatının qarşılıqlı əməkdaşlığı ilə "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci Beynəlxalq Elmi Konfrans Bakıda təşkil olunub. S.Yaqubov dünyanın müxtəlif ölkələrindən altı istiqamət üzrə 201 məruzənin daxil olduğu beynəlxalq konfransda davamlı inkişaf konsepsiyasının əsas istiqamətlərinin öz əksini tapdığını vurğulayıb.

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov beynəlxalq konfransa Bakının evsahibliyi etməsini ölkədə həyata keçirilən uğurlu dövlət siyasətinin nəticəsi kimi qiymətləndirib. Nazirlik rəsmisi konfransa ölkənin aparıcı universitetlərindən olan UNEC-in təşkilatçılıq etməsini Azərbaycan ali təhsilinin beynəlxalq ali təhsil və elm məkanında artan nüfuzundan xəbər verdiyini vurğulayıb. Konfransı sosial iqtisadi məsələlərin geniş müzakirə olunduğu bir platforma adlandıran Ş.Bayramov bildirib ki, ölkənin inkişaf strategiyasının həyata keçirilməsi üçün seçilmiş çevik mexanizm sosial-iqtisadi inkişafın təmin olunmasına geniş imkanlar yaradıb: "Konfransa dünyanın müxtəlif ölkələrindən çoxsaylı alimlərin qatılması onu deməyə əsas verir ki, alimlər də davamlı inkişafın sosial-iqtisadi inkişaf kontekstində geniş ictimaiyyətə çatdırılmasında maraqlıdırlar".

Beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunmasına göstərdiyi dəstək üçün UNEC rəhbərliyinə minnətdarlığını bildirən təşkilat komitəsinin prezidenti Domagoj Cingula 37-ci konfransın Azərbaycanda keçirilməsini əlamətdar hadisə adlandırıb. Bildirib ki, konfransda dünyanın 16-dan çox ölkəsinin tədqiqatçıları ilə birgə dayanıqlı inkişafın sosial-iqtisadi problemləri ilə bağlı müzakirələr aparılacaq və qlobal çağırışlar təhlil ediləcək. D.Cingula konfransa qəbul olunan məqalələrin "Web of Science" və "EconLit" kimi nüfuzlu beynəlxalq elmi bazalarda dərc olunacağını qeyd edib.

Təşkilat komitəsinin üzvü, Zaqreb Universitetinin departament direktoru Marijan Cingula Azərbaycanda ilk dəfə olduğunu bildirərək, Bakını çox gözəl şəhər adlandırıb. Layihə barədə məlumat verən M.Cingula qeyd edib ki, məqsəd inkişafın iqtisadi amillərini insanların sosial təminatı kontekstinə daxil etmək və ölkələrin inkişafını bu istiqamətə yönəltməkdir.

Tədbir dünya iqtisadiyyatının aktual çağırışlarının müzakirəsi ətrafında çıxışlarla davam edib.

Beynəlxalq konfrans öz işini 2 gün UNEC-də təşkil olunan bölmə iclaslarında davam etdirəcək.

# Azərbaycanda dövlət-vətəndaş münasibəti sağlam zəmində qurulub

Ölkəmizdə müntəzəm olaraq islahatlar həyata keçirilir. Bu islahatların əsası 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz həmin dövrdən də Azərbaycanın sabitlik və inkişaf dövrü başlanmışdır. 2003-cü ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoymuşdur. Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının qəbul edilməsi ölkənin müxtəlif istiqamətlərdə inkişafını müəyyənləşdirmişdir.

Keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı istiqamətində genişmiqyaslı işlər aparılır. Odur ki, bu ildən islahatların yeni mərhələsi başlayır.

Prezident İlham Əliyevin "Real" televiziyasına müsahibəsində də son illərdə iqtisadi sahədə aparılmış islahatların, ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı həyata keçirilmiş tədbirlərin hansı müsbət reallıqları ortaya qoyduğu barədə geniş bəhs olunmuşdur. Qazanılmış nailiyyətlər Dünya Bankının "Doing Business" hesabatında da öz aydın əksini tapmışdır. Azərbaycan həmin hesabata ilk dəfə 2006-cı ildə düşmüşdür və o dövrdə 90-cı yerləri tuturdu. Bu gün isə ölkəmiz 25-ci yerdədir. Biznes mühitinin yaxşılaşdırılması, investisiya qoyuluşu üçün yeni imkanların yaradılması istiqamətində əsl inqilabi islahatlar həyata keçirilmişdir. İndi məqsəd daha da irəliyə getməkdir.

2019-cu ildən başlayan islahatların əsas hədəfi də Azərbaycanı məhz müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir. Buna indiyə qədər qazanılmış nailiyyətlər də imkan verir, yəni möhkəm bünövrə artıq var. Məsələn, bu gün Azərbaycan böyük həcmdə elektrik enerjisi istehsal edərək həm öz tələbatını ödəyir, həm də xaricə elektrik enerjisi ixrac edir. Halbuki 1990-cı illərin əvvəllərində ölkədə bu sahədə böyük problemlər yaşanırdı. Digər sahələrdə də vəziyyət acınacaqlı idi. İndi isə heç sovet dönəmində də qazlaşdırılmamış ən ucqar kəndlərdəki evlərdə mavi alov şölələnir. Ölkədə qazlaşdırmanın səviyyəsi 95 faizi ötüb. Əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə çoxsaylı layihələr həyata keçirilib.

Bütün bunlarla yanaşı, Azərbaycan həm də qlobal beynəlxalq layihələri gerçəkləşdirməyə nail olub. Ölkəmiz artıq Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilib. Belə ki, indi Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir. Azərbaycan bu layihələrin hər ikisində iştirak edən yeganə ölkədir.

Qazanılan nailiyyətlər, əldə olunan gəlirlər ilk növbədə xalqın rifahına yönəldilir. Başqa sözlə, Azərbaycan dövləti güclü sosial siyasət yeridir və bu, həmişə gündəmdə olan ən vacib və ümdə məsələlərdən biri olaraq qalır. Prezident İlham Əliyev dövlətin siyasətinin mərkəzində vətəndaşın dayandığını daim vurğulayır və bu sözlər ardıcıl tədbirlərlə, əməli işlərlə təsdiq olunur.

Dövlət ilk növbədə ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların həyat səviyyəsini yaxşılaşdırmağa çalışır. Bu istiqamətdə böyük işlər görülmüşdür. Erməni təcavüzü nəticəsində yurd-yuvasından köçkün düşmüş insanlar üçün 100-dən çox şəhərcik salınmışdır. Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardımın verilməsi prosesi davam edir.

Bütün bunlar vətəndaşa dünya təcrübəsində analoqu olmayan humanist bir yanaşmadır. Bu, Azərbaycan dövlətinin siyasətinin bariz nümunəsidir və təsadüfi deyil ki, beynəlxalq təşkilatlar ölkəmizin həyata keçirdiyi bu tədbirləri nümunə kimi göstərirlər.

Çox uzağa getməyək. Bu yaxınlarda Prezident İlham Əliyevin Şamaxıda zəlzələdən zərər çəkmiş və stress keçirmiş insanlarla görüşünü xatırlayaq. Bu görüşlərin özü də Azərbaycanda dövlət-vətəndaş münasibətlərinin necə sağlam bir zəmində qurulduğunun bariz nümunəsidir. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə dövləti onun yanındadır. Dövlət də tam əmindir ki, vətəndaşlar da hər zaman onun dayağıdır.

Bir sözlə, sosial-iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, orada irəliləyişlərə nail olunmasın. 1990-cı illərin əvvəllərində Azərbaycanın geridə qalmasını bəlkə də heç kəsin görməməsini istəyərdik. Bu gün isə Azərbaycan dünya miqyaslı tədbirlərə evsahibliyi edir. Son illərdə "Eurovision" mahnı yarışmasının, I Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının, "Formula-1" yarışlarının ölkəmizdə böyük müvəffəqiyyətlə keçirilməsi buna aydın misaldır.

Azərbaycandakı inkişaf dünyanın diqqət mərkəzindədir. Bunu ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması da təsdiqləyir. Təkcə keçən il ölkəmizə 2 milyon 800 min xarici qonaq gəlib. Bu isə həm də nailiyyətlərimizin əyani nümayişi, milyonlarla insanın şanlı keçmişimizdən, uğurlu bugünümüzdən xəbər tutması, qonaqpərvərliyimizi, yurdumuzun gözəlliyini görməsi deməkdir.

Bütün bunlar Azərbaycan dövlətinin yeritdiyi düzgün və məqsədyönlü siyasəti nəticəsində mümkün olub. Məlumdur ki, xalqın və iqtidarın birliyi istənilən ölkədə hərtərəfli inkişaf üçün əsas şərtdir. Azərbaycanda bu, vardır! Bu böyük üstünlük imkan verir ki, ölkəmiz daha böyük uğurlar qazansın, islahatlar yolu ilə daha da irəliyə getsin. Prezident İlham Əliyevin dediyi kimi, hədəfimiz qüdrətli, müasir dövlət qurmaqdır.

***Flora SADIQLI, "Azərbaycan"***

# İcma əsaslı təlim mərkəzləri kəndlərə yeni nəfəs gətirib

## Belə mərkəzlərin yaradılmasında məqsəd məktəbəqədər təhsilin əhatəliliyinin daha da genişləndirilməsidir

Uşaqların tərbiyəsi ilk növbədə ailədən, sonrakı mərhələdə isə bağçadan, məktəbdən asılıdır. Bəllidir ki, şəhərdə bağçaların və yeni açılmış məktəbəqədər təhsil müəssisələrinin sayı kifayət qədərdir. Bəs rayon, kənd uşaqları?







Elə Təhsil İnstitutunun Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirdiyi "İcma qrupları vasitəsilə məktəbəqədər və ibtidai təhsilin yaxşılaşdırılması" layihəsi də məhz bu uşaqlar düşünülərək başladılıb. Layihə çərçivəsində artıq bir neçə bölgədə məktəb daxilində icma əsaslı uşaq təlim mərkəzləri yaradılıb. Elə Təhsil Nazirliyinin təşkilatçılığı ilə Qubanın Qəçrəş və II Nügədi kəndlərinə təşkil olunan mediatur da hər birimizə maraqlı gələn həmin mərkəzlərlə tanışlıq məqsədi daşıyırdı.

### Fırçayla gələcəyi boyayan balacalar

Əvvəlcə şəhid İbrahim Şahmərdanov adına Qəçrəş kənd tam orta məktəbinə yollandıq. Yanvarın 3-dən etibarən burada fəaliyyət göstərən İcma əsaslı Uşaq Təhsil Mərkəzində uşaqlar sulu boya ilə rəsmlər çəkirdilər.

Müəllim Fidan Əliosmanova ilə söhbətimizdə öyrəndik ki, mərkəzdə 22 nəfər 3-4 yaşlı uşaq var. Artıq iki ildir ki məktəbdə ibtidai təhsil tədris edən müəllim bu ildən icma tipli mərkəzdə də işləməyə başlayıb. Bakıda bunun üçün müvafiq təlimdə iştirak edib. Proqrama əsasən, məşğələlər zamanı uşaqların 4 inkişaf dinamikası - sosial emosional inkişaf, idrak və ümumi bilik, yaradıcı və fiziki inkişafı izlənilir, mərkəzdə hər gün bir valideyn müəllimə kömək etsin deyə növbətçi təyin olunur.

### 10 bölgə, 50 icma əsaslı məktəbəqədər təhsil mərkəzi

Layihə meneceri İlahə Rəsulova məlumat verdi ki, layihə çərçivəsində fəaliyyət göstərən icma əsaslı uşaq təhsil mərkəzləri 10 bölgəni - Ağcabədi, Biləsuvar, Cəlilabad, Goranboy, Masallı, Sabirabad, Salyan, Şəmkir, Quba və Xaçmaz rayonlarını əhatə edir: "Layihə çərçivəsində bölgələrdəki ucqar kəndlər və sərhəd zonası da daxil olmaqla ümumilikdə 50 icma əsaslı məktəbəqədər təhsil mərkəzi fəaliyyət göstərir. Hər mərkəzdə orta hesabla 20 nəfər 3-4 yaşlı uşaq olmaqla ümumilikdə 1000 nəfərə yaxın uşaq məktəbəqədər təhsilə cəlb edilib.

Layihənin əsas məqsədi icma əsaslı vətəndaş qrupları vasitəsilə məktəbəqədər təhsilin əhatəliliyini artırmaq və valideynlərin məktəbəqədər təhsil xidmətlərinin monitorinqində fəal iştirakı ilə şəffaflıq və hesabatlılığı, eləcə də məktəb-cəmiyyət münasibətlərinin gücləndirilməsini təmin etməkdir.

İlahə Rəsulovanın sözlərinə görə, mərkəzdə məşğələlərə 22 nəfər 3-4 yaşlı uşaq cəlb olunub. Layihəyə uyğun olaraq mərkəzdə dərslər hər biri 2-2,5 saat olmaqla həftədə 4 dəfə təşkil olunur. Dərslər yerli və eston mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən hazırlanmış proqram əsasında keçirilir. Yaxın zamanlarda da aktiv valideynlər seçilib valideyn assosiasiyası təşkil ediləcək. Layihə avqustun əvvəlinə kimi nəzərdə tutulub.

### Hər gün Sumqayıtdan Qubaya gedən müəllim

Balaca Kərəmin nənəsi Rəhimə Tapdıqova deyir ki, uzun zamandır Qəçrəşdə bağça olmadığından uşaqlar məktəb yaşına kimi elə həyət-bacada oynamaqla vaxt keçirirdilər: "Amma bu cür mərkəzin yaradılması çox yaxşı oldu. Burada uşaqlarımız lazımi biliklərə yiyələnir, davranış qaydalarını öyrənir, faydalı məlumatlar əldə edirlər".

Məktəbdə olduğumuz zaman həmçinin müəllimlərin işə qəbulu üzrə müsabiqədə yüksək bal toplayan və həvəsləndirmə tədbirləri çərçivəsində bu təhsil müəssisəsində çalışan alman dili müəllimi Maral Yusifovanın, tarix müəllimi Nigar Bəşirovanın və biologiya müəllimi Gülər Abdullayevanın dərslərini də izlədik.

24 yaşlı gənc müəllim Maral Yusifova Sumqayıtda yaşayır. O, hər gün Sumqayıtdan Qubanın Qəçrəş kəndinə dərs keçməyə gəlir. 2017-ci ildən burada çalışdığını deyən müəllim həftənin dörd günü dərs keçir. O, bizimlə söhbətində dedi: "Hər gün səhər 05:00-dan Sumqayıtdan yola düşürəm və gəlib dərsimi deyib, axşam da Bakıya magistr dərsinə yollanıram. Azərbaycan Dillər Universitetində magistr təhsili alıram. Hər gün bu qədər məsafə qət etməyimə, müəyyən çətinliklərə baxmayaraq, öz peşəmi çox sevirəm. Şagirdlərimin sevgisi, onların dərsə marağı da bütün çətinliklərin öhdəsindən gəlməyimə kömək edir. Əsas məqsədim şagirdlərin dil bacarıqlarını inkişaf etdirməkdir. Rayonda işləmək mənə zövq verir. Buranın təbiəti, insanların xoş münasibəti çox yaxşıdır".

İşə qəbul imtahanında 45 bal toplayaraq məhz Qubanın Qəçrəş kəndini seçən Maral müəllim deyir ki, seçimində ailəsi ona çox dəstək olub: "Düşündüm ki, rayonda yaşayan uşaqların da xarici dil öyrənməyə ehtiyacı var. Burada həm də maaşdan əlavə həvəsləndirmə də var. Bura gəldiyim ilk gündən indiki vəziyyəti müqayisə etsək, uşaqların bilik səviyyəsində çox böyük irəliləyişlər müşahidə etmək olar".

### Gənc müəllimlər getdikləri yerə yeni nəfəs gətirirlər

Nigar Bəşirova Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirdikdən sonra pedaqoji fəaliyyətə Quba rayonunda başlayıb. O, işini sevdiyi üçün evindən çox uzaqda yaşamasının ona ciddi çətinlik yaratmadığını deyir: "Düşünürəm ki, gənc müəllimlər gəldikləri yerə yeni nəfəs gətirirlər. Kənd uşaqlarına bilik qazandırmaqda az da olsa payının olması insanı sevindirir. Uşaqların hamısı ilə çox yaxşı münasibətimiz var. Tarix fənninə olan həvəsləri yüksəkdir. Uşaqlarla aramda çox az yaş fərqim olsa da, tədris zamanı heç bir çətinliyim olmur. Onların müəllimə hörməti, dərsə hazırlığı çox yaxşıdır".

Elə rayonun özündə kirayə yaşayan Nigar müəllim şəhərin səs-küyü üçün darıxmadığını deyir: "Artıq bura öyrəşmişəm. Gördüyüm isti münasibət "yaxşı ki, burdayam" deməyə imkan verir".

8-ci sinif şagirdi Ləman Ağayeva da Nigar müəllimənin dərs metodunu çox xoşlayır. Deyir ki, gənc müəllim tarix fənnini fərqli üslubda tədris etdiyi dərsə böyük maraq göstərirlər.

### Son 5 ildə məktəbə 13 müəllim işə qəbul olunub

Məktəbin direktoru Həbib Hacıyevlə söhbətimiz zamanı bəlli oldu ki, 600 yerlik Qəçrəş kənd tam orta məktəbi 2006-cı ildə Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi əsasında tikilib. Hazırda məktəbdə təhsil alan 409 şagirdin təlim-tərbiyəsi ilə 38 nəfər pedaqoji işçi məşğul olur.

Məktəbəhazırlıq qruplarında 36 uşaq təhsil alır. Son 5 ildə məktəbə 13 yeni müəllim işə qəbul olunub. Onların sayəsində məktəbin təhsil uğurları artıb. Son iki ildə ümumilikdə 20 şagird ali məktəbə qəbul olunub.

Həbib Hacıyev özü də bu il direktorların işə qəbul müsabiqəsində iştirak edərək 38 bal toplayıb. O, 2006-cı ildən işlədiyi bu məktəbə direktor təyin olunub.

### Nügədinin təhsil nailiyyətləri

Qəçrəş kənd məktəbindən ayrılıb 2-ci Nügədi kənd 3 nömrəli tam orta məktəbdə yaradılan İcma əsaslı Uşaq Təhsil Mərkəzinin fəaliyyəti ilə də tanış olduq.

Mərkəzdə uşaqlar əl işləri hazırlayır, müxtəlif intellektual oyunlar oynayırdılar. Balaca Elmir ortalıqda gəzinirdi. Dediyinə görə, bura onun çox xoşuna gəlir. Ev üçün darıxmır. Hətta hər gün özü paltarlarını geyinib bura gəlməyə tələsir.

Daha sonra məktəbdə dərs deyən Sumqayıtdan gəlmiş gənc müəllimlərin dərslərini izlədik.

Riyaziyyat müəllimi Kəmalə Fazilova müəllimlərin işə qəbul imtahanında 52 bal toplayaraq buranı seçib. Dediyinə görə, burada dərs keçmək ona çox rahatdır. 23 yaşlı gənc müəllim şagirdlərin dərs səviyyəsini irəlilətmək üçün çalışdığını deyir.

Kimya müəllimi Arzu Məmmədovanın 22 yaşı var. İlk ili Lerikdə işləyib. Ora çox uzaq olduğundan bu il yenidən imtahan verərək bu məktəbi seçib.

Məktəbin direktoru Müşfiq Bilalov bizi məlumat verdi ki, 2-ci Nügədi kənd 3 nömrəli tam orta məktəb 1964-cü ildə yaradılıb. 2012-ci ildə məktəb üçün yeni bina tikilib. Hazırda məktəbdə 334 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 28 müəllim məşğul olur. Hazırda təhsil müəssisəsində 2 məktəbəhazırlıq qrupu var. Bu qruplarda 35 uşaq təhsil alır. Cari tədris ilində məktəbə 3 müəllim işə qəbul olunub. Onların ikisi Sumqayıtdandır. Ötən il 16 şagirddən 4-ü ali məktəbə qəbul olunub.

Qeyd edək ki, 2018-2019-cu tədris ilində Quba rayonunun ümumi təhsil müəssisələrinə 81 müəllim işə qəbul olunub. Onların 70 faizi dağ kəndlərindəki ümumi təhsil müəssisələrində çalışır. Kəndlərdə icrasına başlanılan bu layihənin uğurlu və faydalı olacağına heç bir şübhə yoxdur.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# *Sahil BABAYEV:* “Martın 1-dən pensiyalar 116 manatdan 160 manata çatdırılacaq”

Fevralın 14-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Prezident İlham Əliyevin təşəbbüsü əsasında minimum əmək pensiyasının artırılması üçün hazırlanmış qanun layihəsinə dair geniş mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin təşəbbüsü ilə əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasını nəzərdə tutan yeni qanunvericilik layihəsinin hazırlanaraq Milli Məclisə təqdim olunduğunu deyib: “Qanun layihəsinin Milli Məclisin fevralın 19-da keçiriləcək plenar iclasında qəbul edilməsini gözləyirik. Əhalinin sosial müdafiəsində daha bir mühüm addım olan bu təşəbbüs nəticəsində əmək pensiyasının minimum məbləği martın 1-dən 38,5 faiz artırılaraq 116 manatdan, bir sıra kateqoriyalar üzrə 80 manatdan 160 manata çatdırılacaq. Minimum pensiya məbləğinin artırılması 233 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz, yəni 75 manat, 26 min nəfərin pensiyasında 30 faiz - 37 manat, 74 min nəfərin pensiyasında 16 faiz - 27 manat artım olacaq. Artımın edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı üzrə, yəni martdan dekabradək 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək. Bu artımdan sonra alıcılıq qabiliyyəti indeksi üzrə ölkəmiz MDB məkanında ilk iki yeri bölüşür”.

Nazir, həmçinin deyib: “Ölkə başçısının əhalinin rifah halının yaxşılaşdırılmasına xüsusi qayğısı bu istiqamətdə humanizm və sosial ədalət prizmasından yeni və mühüm addımların atılmasının ardıcıl xarakter almasına, eyni zamanda, həssas qruplara dövlətin dəstəyinin daha da güclənməsinə səbəb olub. Ötən il keçirilmiş seçkilərdə əhalinin mütləq əksəriyyətinin etimadını yenidən qazanaraq Prezident seçildikdən sonra dövlət başçısının ilk olaraq 2018-ci il 19 aprel tarixində imzaladığı fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Bu il yanvarın 28-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə görüşündə dövlət başçısı şəhid ailələrinə qayğı göstərilməsinin onun fəaliyyətində daim prioritet təşkil etdiyini bəyan edib və həmin gün imzalanan daha bir fərmanla birdəfəlik ödəmələrin verilməsi 2725 nəfər çox olmaqla 12 min 268 şəhidin vərəsələrini əhatə edib, bu məqsəd üçün ümumilikdə 135 milyon manat vəsait ayrılıb.

Eyni zamanda, ötən ilin avqustun 1-də şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin və minik avtomobillərinin təqdim olunması tədbirində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak edib və həmin tədbirdən bir gün sonra ölkə başçısının imzaladığı sərəncamla ayrılmış vəsait hesabına ötən il şəhid ailələrinə və müharibə əlillərinə verilən mənzillərin sayı 3 dəfədən çox artırılaraq 626-ya, indiyədək verilən mənzillərin sayı 6 min 654-ə çatdırılıb. Qarabağ müharibəsi əlillərinə ötən il 265 avtomobil verilməklə bu kateqoriyadan olanlara təqdim olunan avtomobillərin sayı isə 6 min 144-ə çatıb.

Ölkə başçısının 2019-cu il 28 yanvar tarixli sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin alınması məqsədilə daha 35 milyon manat ayrılıb və Prezident İlham Əliyevin tapşırığı ilə bu il azı 800 mənzilin verilməsi nəzərdə tutulub. Digər tərəfdən, 2019-cu il 30 yanvar tarixli fərmanla şəhid ailəsi üçün Prezidentin təqaüdünün aylıq məbləği 58 manat artırılaraq fevralın 1-dən 300 manata çatdırılıb. Hazırda 12 mindən çox şəhid ailəsini əhatə edən bu təqaüdlər dövlət başçısının müvafiq tapşırıqları əsasında ötən dövrdə 3 dəfə artırılıb”.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanı isə nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və “DOST” mərkəzlərinin yaradılmasına imkan verib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan “DOST” layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdıracaq. Cari ilin birinci rübündə ilk “DOST” mərkəzi yaradılacaq. İl ərzində Bakıda 4 və 2019-2025-ci illərdə respublika üzrə isə 31 belə mərkəz açılacaq.

Sahil Babayev, həmçinin dövlət başçısının tapşırığı ilə pensiya təyinatı üzrə xidmətlərin avtomatlaşdırılmış şəkildə qurularaq məmur-vətəndaş təması olmadan tam şəffaflaşdırıldığını, vətəndaşların onlar barədə bütün sosial məlumatlara və xidmətlərə əlçatanlığını təmin edən “E-sosial” internet portalının qurulduğunu, vahid məşğulluq portalının vacib komponenti kimi “Məşğulluq alt-sistemi”nin yaradıldığını deyib. O qeyd edib ki, həmçinin Prezident İlham Əliyevin tapşırığı ilə ötən il özünüməşğulluq proqramının əhatə dairəsi 6,5 dəfə genişləndirilərək 7,3 minə yaxın şəxsi əhatə edib. Onlardan artıq 5800-ü aktivlərlə (mal və materiallarla) təmin olunaraq kiçik ailə təsərrüfatlarını yaradıb. Cari ildə daha 7-8 min şəxs bu proqrama cəlb olunacaq. Eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanan “İşsizin DOSTu” proqramı ödənişli ictimai işlərin sistemli və şəffaf təşkilinə imkan verməklə, bu il 30 min işsiz və işaxtaran şəxsin əmək müqaviləsi əsasında belə işlərlə təmin edilməsinə şərait yaradıb və onlardan artıq 25 mindən çox şəxs ödənişli ictimai işlərlə təmin olunub.

S.Babayev bildirib ki, ümumən son 15 ildə Azərbaycanda əməkhaqlarında 7 dəfə, eləcə də minimum əməkhaqlarında 6,5 dəfə artım özünü göstərib. Əhalinin rifah halının yaxşılaşdırılmasında növbəti irəliləyiş olan 2019-cu il 8 fevral tarixli sərəncam cari il martın 1-dən minimum əməkhaqqının 38,5 faiz (50 manat) artırılaraq 180 manata çatdırılmasına, muzdla çalışanların azı 40 faizinin və ya 600 mindən çox işçinin əməkhaqlarının artmasına imkan verib. Dövlət başçısının xüsusi qayğısı hazırda 1,3 milyon nəfərdən və ya əhalinin 13 faizindən ibarət olan pensiyaçıları da əhatə edir. Müvafiq sərəncamla cari ilin əvvəlindən pensiyaların növbəti dəfə indeksləşdirilərək artırılması təmin olunub. Yanvar və fevral ayı üzrə bu artımla bağlı əlavə olaraq 15 milyon manat vəsait yönəldilib.

Sonra Sahil Babayev jurnalistlərin suallarını cavablandırıb.

# *Mikayıl CABBAROV:* “Azərbaycanda vergi ombudsmanı institutunun yaradılması qərara alınıb”

Vergilər Nazirliyində 2018-ci ilin yekunlarına və 2019-cu ildə vergi orqanları qarşısında duran vəzifələrə həsr edilmiş geniş tərkibli kollegiya iclası keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov nazirliyin fəaliyyətinin təkcə fiskal funksiyalarla məhdudlaşmadığını, vergi xidmətinin iqtisadiyyatın dövlət tənzimlənməsində mühüm rol oynadığını və onun sahibkarlığın inkişafında səmərəli bir tənzimləmə aləti olduğunu vurğulayıb. 2018-ci ilin yeni vəzifələrin və iş prinsiplərinin icrası, tətbiqi baxımından çox əhəmiyyətli dövr olduğunu deyən nazir ötən il vergi sistemində struktur və kadr islahatlarının aparıldığını, inzibatçılıqda yeni prinsiplərin tətbiq edildiyini, qanunvericiliyin təkmilləşdirildiyini diqqətə çatdırıb.

Sonra vergilər nazirinin müavini İlkin Vəliyev və nazirliyin departament rəhbərləri 2018-ci ildə görülmüş işlər, qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək istiqamətində həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər. Qeyd edilib ki, ötən il vergi daxilolmaları 7 milyard 415 milyon manat təşkil etməklə nəzərdə tutulmuş proqnoz tapşırıqları tam icra edilib, qeyri-neft sektorundan daxilolmalar əvvəlki ilə nisbətən artıb, regionların inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası nəticəsində regionlar üzrə proqnoz tapşırıqlarına 114 faiz əməl edilib. Dövlət büdcəsinə artıq ödəmələrin həcmi il ərzində 503,7 milyon manat və ya 21,4 faiz azaldılıb. Vergi yoxlamalarının sayının əvvəlki ilə nisbətən 3,4 dəfə azaldılmasına baxmayaraq, risklərin idarə edilməsi sistemi əsasında bir yoxlamaya düşən hesablamada 2 dəfəyədək artım qeydə alınıb.

Kollegiya iclasına yekun vuran M.Cabbarov 2019-cu il üçün vergi orqanlarının qarşısında duran əsas məsələlərə toxunaraq bildirib ki, vergi sistemində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığında rəqəmsal texnologiyalardan daha geniş istifadə olunması, vergi qanunvericiliyinin tətbiqi sahəsində vergi nəzarətinin və auditin keyfiyyətinin yüksəldilməsi, habelə vergi işçilərinin peşəkarlıq səviyyəsinin artırılması əsas prioritet istiqamətlər olacaq.

İri, orta və kiçik sahibkarlıq subyektləri ilə iş prinsiplərinin təkmilləşdirilməsinin vacibliyini qeyd edən nazir vergi administrasiyasının əsas vəzifələrindən birinin hər bir kateqoriyadan olan vergiödəyicilərinə fərdi yanaşmalar formalaşdırmaqdan ibarət olduğunu bildirib. İri vergiödəyiciləri ilə iş prinsipində geniş analitik təhlilə və risklərin qiymətləndirilməsi sisteminə əsaslanan siyasətin yürüdülməsinə, elektron auditin tətbiqi siyasətinə üstünlük verilməsinə, orta sahibkarlıq subyektlərinə münasibətdə “kölgə iqtisadiyyatı”nın elementlərinin aradan qaldırılmasına, kiçik sahibkarlara münasibətdə isə dürüst və şəffaf vergi uçotunun formalaşdırılmasının təmin olunmasına, sahibkarlıq subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə, xidmət sektorunun genişləndirilməsi və maarifləndirmənin aparılmasına üstünlük verilməli olduğu diqqətə çatdırılıb. Kiçik sahibkarlar arasında könüllü əməletmə səviyyəsini yüksəltmək məqsədilə onların təqdim etdiyi hesabatlılıq sisteminin sadələşdirilməsinə ehtiyac olduğu qeyd edilib.

Vergiödəyicilərin hüquq və qanuni mənafelərinin daha etibarlı şəkildə müdafiə edilməsinin, vergi apelyasiya sisteminin təkmilləşdirilməsinin vacibliyini xüsusi olaraq vurğulayan M.Cabbarov bildirib ki, sahibkarların hüquqlarını qoruyan yeni və daha effektiv mexanizmlərin yaradılması istiqamətində araşdırmalar aparılıb və inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi əsas götürülərək Azərbaycanda vergi ombudsmanı institutunun yaradılması qərara alınıb. Vergi inzibatçılığının rəqəmsallaşdırılması prosesinin davam etdiriləcəyi, vergi xidmətləri və vergi nəzarətində yeni innovativ texnologiyaların tətbiqi istiqamətində tədbirlərin daha da genişləndiriləcəyini qeyd edən nazir vergi əməkdaşlarının, xüsusilə audit sahəsində çalışanların bilik və bacarıqlarının artırılması, fəaliyyətinin qiymətləndirilməsi üçün yeni mexanizmin həyata keçirilməsinin vacibliyini də diqqətə çatdırıb.

Sonda M.Cabbarov 2019-cu ildə vergi orqanları qarşısında duran vəzifələrin icrasının təmin edilməsi, vergi orqanlarının fəaliyyətinin müasir tələblərə cavab verən səviyyədə qurulması, nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin mövcud potensialının bu vəzifələrin icrasına səfərbər edilməsi ilə bağlı konkret tapşırıqlar verib.

# IV proqramda da aqrar sektorun inkişafına xüsusi önəm verilir









Məlumdur ki, əsas məqsədi ölkənin dayanıqlı və ümumi inkişafını təmin etmək olan regional dövlət proqramlarında hər bir sahəyə aid əsas tədbirlər önə çəkilmişdir. Düşünülmüş və elmi əsaslara söykənən dövlət sənədlərində aqrar sektora da xüsusi yer verilmişdir.

Bu da səbəbsiz deyil. Bölgələrdə yaşayan əhalinin əsas gəlir mənbəyi və güzəranı aqrar sektorun inkişfından asılıdır. Odur ki, dövlət tərəfindən kənd təsərrüfatında çalışanlara hər cür dəstək verilməsi tam təbiidir. Bu gün kəndlərdə məhsul istehsalçıları torpaq vergisindən savayı bütün növ vergilərdən azad ediliblər, üstəlik, onlar istifadə etdiyi yanacağa, sürtkü yağlarına görə dövlətdən subsidiya alırlar. İstehsalçılar müxtəlif toxum, damazlıq heyvanlarla pulsuz və ya güzəştli qiymətlərlə də təmin edilirlər. Faktlara diqqət verək: üç dövlət proqramının icrası zamanı 16 mindən çox sahibkarın ümumi dəyəri 2,6 milyard manat olan layihələrinə 1 milyard manatdan çox güzəştli kredit verilib. Bunun da 79 faizi aqrar sektorun inkişafına yönəldilib.

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda növbəti illərdə də aqrar sektorun inkişafına xüsusi önəm veriləcəyini bildirərək demişdir: “Kənd təsərrüfatı və sənaye istehsalı IV proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq qeyd etdiyim kimi, onların böyük hissəsi başa çatıb, yaxud da ki, başa çatacaq. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir... Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial daha böyükdür və biz yeni bazarlara çıxmalıyıq”.

Yeri gəlmişkən qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsaitin sərf edilməsi nəzərdə tutulur. Bunun 4,6 milyard manatının özəl sektor tərəfindən yatırılması proqnozlaşdırılır. Dövlət isə 13 milyard manata yaxın kapital qoyuluşunu həyata keçirəcək. Deməli, sonuncu proqramın icrası zamanı da aqrar sektora dövlət dəstəyi davam edəcək.

Regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramının icrası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələri ilə bərabər, kənd təsərrüfatında da böyük uğurlar qazanılıb. Məsələn, 2004-cü ildə ölkə üzrə 196 min ton ət tədarük edilmişdisə, keçən il bu rəqəm 326 min tona çatıb. Həmin dövrdə süd istehsalı 1 milyon 200 min ton, ötən il isə 2 milyon ton olub. Növbəti 5 il ərzində həm ət, həm də süd istehsalını 15-20 faiz artırmaq nəzərdə tutulub.

Son dövrlər ölkədə quşçuluq sənayesi də inkişaf edir. Əgər 2004-cü ildə 44 min ton quş əti istehsal edilmişdisə, ötən il 109 min ton olmuşdur. Tərəvəz istehsalı da bu dövrdə 0,5 milyon ton artaraq 1 milyon 500 min ton təşkil etmişdir. İstehsalın artımı nəinki ölkəmizə kənd təsərrüfatı məhsullarının idxalını azaltmış, həmçinin ixrac imkanı yaratmışdır. Təkcə ötən il pomidor ixracından 177 milyon, xurmadan 114 milyon, pambıq və pambıq məhsullarından 108 milyon, fındıqdan 100 milyon, almadan isə 38 milyon dollar gəlir əldə edilmişdir.

İndi ölkəmizdə kiçik və orta fermer təsərrüfatları yaradılır. Güzəştli kreditlərdən istifadə edən fermerlər müasir texnika və texnologiyaları istehsalata tətbiq etməklə daha yüksək məhsuldarlığa nail olurlar. Məsələn, iri fermer təsərrüfatlarında hər hektardan orta hesabla 50 sentner taxıl yığılır.

Prezident sözügedən konfransda onu da vurğulamışdır ki, IV Dövlət Proqramı əsasən yerlərdən gələn müraciətlər əsasında hazırlanıb. Məlumdur ki, dövlət başçısı rayonlara səfər edərkən hər bir rayonun ehtiyaclarına fərdi qaydada yanaşaraq onların həlli istiqamətində müvafiq tədbirlər görür. Sonuncu Dövlət Proqramı da bu təklif və xahişlər ətrafında formalaşır. Belə yanaşma isə daha düzgün və doğru qərarların qəbul edilməsinə imkan yaradır.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Ermənistanda terrorçular hərbi xunta ilə birləşir

## Keçmiş və indiki hakimiyyət arasında qarşıdurmalar işğalçı ölkəni yeni problemlər məngənəsinə yuvarlayır

Ermənistanın yeni hakimiyyəti ilə Sarkisyan-Koçaryan koalisiyası arasında yaranan qarşıdurma ölkədə siyasi sahə ilə yanaşı, sosial-iqtisadi sferada da ciddi problemlər yaradır. Əsas səbəb isə odur ki, ölkənin maliyyə rıçaqları, iqtisadiyyatın bir çox mühüm sferaları hələ də keçmiş hakimiyyətin nəzarətindədir. İndi onlar baş nazir Nikol Paşinyanın mövqelərini laxlatmaq üçün əllərində olan bütün imkanlardan yararlanmağa çalışırlar.

### Bank sektorunda ciddi valyuta çatışmazlığı var

Ermənistanın “Jamanak” qəzeti yazır ki, bu durumda ölkəni iqtisadi sahədə çətin günlər gözləyir: “Mərkəzi Bankın Ermənistanda makroiqtisadi vəziyyətin sabit olduğuna dair əhalini arxayın etməsinə baxmayaraq, biz yenidən milli valyutamız dramın növbəti devalvasiyasının şahidi olduq. Mənbəmiz bildirdi ki, mərkəzi bank hətta tələb olduğu halda belə, banklara dollar almağı qadağan edərək, repressiv tədbirlər vasitəsilə dramın kursunu saxlamağa çalışır. Əgər əvvəllər mərkəzi bank valyuta müdaxilələri yolu ilə dramın kursuna təsir edirdisə, indi xarici rezervlərin pis vəziyyətdə olması üzündən bu maliyyə instrumentinin tətbiqi imkanları xeyli məhdudlaşıb. Bütün bunlar Serj Sarkisyan hakimiyyətinin qoyduğu miraslardır”.

Bununla yanaşı, qeyd edilir ki, baş nazir Nikol Paşinyanın növbədənkənar parlament seçkilərindən sonra hazırlanan yeni hökumət proqramını parlamentə təqdim edərkən səsləndirdiyi “bu gündən etibarən Ermənistanda iqtisadi inqilab dövrünün başlandığını elan edirik” bəyanatı ölkənin mövcud valyuta ehtiyatları və hazırkı inkişaf reallıqları ilə tərs mütənasibdir: “Çünki investisiya və bir sıra digər problemlərlə üzləşən Ermənistanda iqtisadiyyatın bütün sahələrində geriləmə, bank sektorunda ciddi valyuta çatışmazlığı və dövlət borcunun durmadan artması uzun illərdir ekspertlərin Ermənistanın müflis ölkəyə çevriləcəyi ilə bağlı verdikləri proqnozun reallaşacağı günü daha da yaxınlaşdırır”.

### “İnqilab populizmə görə bədəl ödəyir”

Ölkədə siyasi müstəvidə zoraklıq hallarının artması da ciddi təhdid mənbəyi kimi qeyd olunur. Bu hal xüsusən də 2016-cı il iyulun 17-də Yerevanda Post-Patrul Xidmətinin binasına silahlı hücum edərək girovlar götürmüş “Sasna Tsrer” qruplaşması ilə bağlı özünü qabarıq göstərir. Qeyd edək ki, həmin vaxt “Sasna Tsrer” qruplaşması Serj Sarkisyanı hakimiyyətdən getməyə məcbur etmək üçün silahlı qiyam qaldırmış və post-patrul xidmətinin binasına hücum edərək 6 nəfəri girov götürmüşdü. Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra isə “Sasna Tsrer” terror təşkilatının “xaç atası”, o cümlədən qruplaşmanın mənəvi lideri Jirayr Səfilyan həbsdən azad edilmişdi.

Səfilyanla yanaşı, təşkilatın digər üzvləri olan Gevorq Safaryan, Nerses Poğosyan, Qalust Qrigoryan, Hrayr Topçyan, Sasunik Kirakosyan, Ovhannes Petrosyan da azadlığa buraxıldılar. Son hadisələr isə “Sasna Tsrer” terrorçularının artıq hərbi xunta ilə birləşərək Paşinyanın özü üçün də ciddi problemə çevrildiyini göstərir.

Bu xüsusda Ermənistanın “1-in.am” portalında olduqca maraqlı bir yazı dərc edilib. Qruplaşmanın son məhkəməsinə toxunan portal yazır: “Hətta “tsrer”in günahsız olduğunu israr edən adamlar da məhkəmə zalında baş verənlərdən şoka düşdülər. “Sasna Tsrer” qrupunun üzvləri və tərəfdarları məhkəmədə Ermənistanın polis rəisi Valeri Osipyanı alçaldıblar və görmək çətin deyildi ki, polisin dilxor rəisi bu şəraitdə səslənən ittiham və hədələri öz üzərinə götürərək yalnız hökuməti təmsil edirdi.

Nikol Paşinyan populizmə görə bədəl ödəyir. Post-Patrul Xidmətinin alayını ələ keçirmiş, silahlı qrupun iki nəfər istisna olmaqla polisləri qətlə yetirməkdə ittiham olunan üzvləri inqilabın qələbəsindən sonra həbs qətimkan tədbirinin dəyişilməsi nəticəsində azadlığa çıxıblar. Nikol Paşinyan yeni hökumətin məhkəmələrə təsir etmədiyini nə qədər iddia etsə də, aydındır ki, “tsrer” hökumətin siyasi qərarı nəticəsində azad olunub. Hətta “zəngə görə” ədalətin yerinə inqilaba yaxın deputatların xahişi gələrkən inqilabsonrası Ermənistanda kədərli ənənə formalaşıb. “Tsrer”ə münasibətdə göstərilən humanizm hətta Nikol Paşinyanın tərəfdarlarını da parçalayıb.

Əlbəttə, Jirayr Səfilyan və komandası dəfələrlə bildirib ki, özlərini inqilabın arxa cəbhəsi sayır və silahlı mübarizə səhifəsini qapanmış hesab edirlər. Amma “Sasna tsrer”in partiya qurultayında bir sıra çıxışlar tamamilə bunun əksindən xəbər verirdi, nəticədə baş nazir parlamentə seçkilər kampaniyası vaxtı Səfilyanın komandasına qarşı sərt şəkildə durmağa məcbur oldu. Cəmiyyət hökumətdən xeyli ağıllı çıxdı: “Sasna tsrer” parlament seçkiləri zamanı hətta iki faiz səs də yığa bilmədi, bundan sonra onun liderləri daha da radikallaşdı, bunun məntiqi zirvəsi son məhkəmə iclası oldu.

Məhkəmə zalında polis rəisi Valeri Osipyanın ünvanına hədələr səsləndi - onun aşkar dilxorluğu göstərdi ki, Nikol Paşinyan inqilabsonrası ilk həftələrdə populimzə güzəştə getməklə və “gilyotin inqilabı” tərəfdarlarını qanuniləşdirməklə necə böyük bir səhv edib”.

### Xaotik vəziyyət

Məqalədə qeyd edilir ki, silahlı qruplaşmanın üzvü Areq Kyureqyan məhkəmə iclasında “proqram” nitqiylə çıxış edib. O, polis rəisinin keçmiş müavini Vardan Yeqiazaryanın ifadəsi vaxtı xəbərdarlıq edib: “Onda sizə də izah ediblər ki, hakimiyyət qanunsuz mənimsənilib. Polis hökumətlə əməkdaşlıq edirdi, insanların həyatını əlindən alırdı, işgəncəylə öldürürdü, intihara çatdırırdı, onlarla vətəndaş Yerevanın küçələrində güllələnirdi. Və bu hal təkrarlanarsa, biz də serjantdan generala qədər döşəməyi davam etdirəcəyik”.

Hər bir ağıllı adam bu “manifest”dən sonra tələb etməyə borcludur ki, 2016-cı ilin iyununda PPX alayına silahlı hücum edərək üç polisin ölümünə bais olmuş adamlar qanunun bütün ciddiliyi ilə cəzalandırılsınlar. Əks halda “döşəməyə yatırtmaq” dramının təkrarı olacaq - özü də daha amansız nəticələrlə. Burada keçmiş hakimiyyət tərəfindən verilən dəstək vəziyyəti daha da pisləşdirir”.

Bütün bunlar Ermənistanda terror dalğasının yenidən başlanmasını qətiyyən istisna etmir. Belə görünür ki “Sasna Tsrer” qruplaşması hərbi xunta ilə birləşib ölkədə yaşanan xaosu daha da dərinləşdirməyi düşünür.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

✦ QEYRİ-NEFT SEKTORU



# Sənayeləşmə regionların inkişafında önəmli faktora çevrilir

Son dövrlər dünyada baş verən siyasi qarşıdurmalar, dövlətlərin bir-birinə tətbiq etdiyi sanksiyalar göstərdi ki, sənayesi inkişaf edən ölkələrin iqtisadiyyatı daha dayanıqlı və rəqabətqabiliyyətlidir. İqtisadiyyatı bir sahə üzrə inkişaf edən, xüsusilə xammal ixracı ilə məşğul olan ölkələr isə rəqabətə dözümsüzdür.

Üstəlik, siyasi çəkişmələr zamanı həmin ölkələrə sanksiyalar tətbiq olunduqda həmin ölkələrin iqtisadiyyatı qısa bir zamanda çökməyə başlayır.

Məhz bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi sənayeləşmə siyasətinin alternativi yoxdur. Bu alternativsiz siyasətin əsas məqsədi ölkənin hərtərəfli və dayanıqlı inkişafını təmin etmək, neftdən asılılığı aradan qaldırmaqdır. Elə son 15 ildə qeyri-neft sektoruna verilən dəstək də həmin məqsədə xidmət edir. Ölkəmizdə bu müddət ərzində minlərlə irili-xırdalı sənaye, emal, kənd təsərrüfatı müəssisələri fəaliyyətə başlayıb, müasir xidmət infrastrukturu yaradılıb, turizm inkişaf etdirilib və s. Bir sözlə, ölkənin hərtərəfli inkişafına yönəldilən siyasət nəticəsiz qalmayıb.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə istiqamətlənən dövlət proqramları da bu sahədə mühüm rol oynayıb. Belə ki, artıq icra olunaraq başa çatan üç Dövlət Proqramından sonra bölgələrdə yüzlərlə sənaye müəssisəsi yaradılıb. Əvvəllər istifadə olunmayan xammal bu gün həmin müəssisələrdə hazır məhsula çevrilərək yerli tələbatı ödəməklə bərabər, xarici bazara da ixrac olunur. Bununla, yəni yerli sənaye müəssisələrində məhsul istehsalı sayəsində üç əsas uğura imza atılıb. Bunlardan birincisi, həmin məhsulların xaricdən alınmasının ya dayandırılması, ya da xeyli azalmasıdır. Digəri isə bir çox məhsulların ölkəmizdə istehsal edilməsi və hətta onların bir qisminin xarici bazara çıxarılmasıdır. Həyata keçirilən bu iqtisadi siyasət nəticəsində həm ölkədən valyuta axınının qarşısı alınır, həm də büdcəmizə xaricdən əlavə olaraq valyuta daxil olur ki, bunu da üçüncü nailiyyət hesab etmək olar.

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda ölkədə həyata keçirilən sənayeləşmə siyasətinin qeyri-neft sektorunun inkişafındakı əhəmiyyətini qeyd edərək demişdir: “Əlbəttə ki, sənaye sahəsində bizim diqqətimiz eyni zamanda qeyri-neft sektoruna yönəlib. Bu sahədə də yaxşı nəticələr var. Keçən il qeyri-neft sənayemiz 9,1 faiz artıb. Bu onu göstərir ki, həmin sahədə işlər yüksək səviyyədə aparılır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan çox ciddi addımlardır. Gələcəkdə digər şəhərlərdə də sənaye zonaları yaradılacaq”.

Başqa faktlara nəzər salaq: dövlət dəstəyi sayəsində 2014-2018-ci illərdə qeyri-neft sektoru 8, qeyri-neft sənayesi 32 faiz artıb. Həm də bunun sayəsində ötən illər ərzində ölkə üzrə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox iş yeri açılıb.

Onu da qeyd edək ki, iş yerlərinin açılmasında sahibkarlara verilən güzəştli kreditlərin də kifayət qədər rolu olub. Özü də sahibkarlara güzəştli kreditlər ayrılarkən regionlarda çalışan sahibkarlara üstünlük verilib. Məsələn, 2014-2018-ci illərdə 16 mindən çox sahibkar ümumi dəyəri 2,6 milyard manat olan layihələrinə 1 milyard manatdan çox güzəştli kredit alıb və həmin kreditlərin 70 faizi regionlarda fəaliyyət göstərən iş adamlarının payına düşüb. Bu hesaba ötən il bölgələrdə qeyri-neft sektoruna aid çoxsaylı müəssisələr istifadəyə verilib. Sumqayıt şəhərində Pestisidlərin və aqrokimyəvi məhsulların istehsalı və Sumqayıt Kimya Sənaye Parkında Polipropilen, Əlvan metallar və ferroərintilər, İnşaat kimyəvi, Neftçalada “Xəzər” avtomobil, Qubada meyvə emalı zavodları, Sumqayıtda Tütün məmulatları istehsalı fabriki, Şamaxıda Üzümçülük və Şərabçılıq Kompleksi, Masallıda Sənaye Məhəlləsi, Çəltik emalı müəssisəsi, İsmayıllı və Ağdamda “Azərxalça” ASC-nin filialları və s. müəssisələr onların kiçik bir hissəsidir.

***Rüstəm KAMAL, Ağəli MƏMMƏDOV (foto) “Azərbaycan”***

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 3 faiz artıb

Cari il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara görə, ötən illə müqayisədə 1,6 faiz artaraq 1 milyon 548,9 min nəfər olmuşdur. Onlardan 883,9 min nəfəri iqtisadiyyatın dövlət, 665 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda daha sonra bildirilir ki, muzdla işləyənlərin 21,6 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,4 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təmiant, 6,8 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşdur.

2018-ci ilin ilkin məlumatlarına görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 3 faiz artaraq 544,1 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, tikinti sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Yanvarda ölkə üzrə gündəlik neft hasilatı 793 min barel olub

Azərbaycanda yanvar ayı üzrə gündəlik neft hasilatı 793 min barel olub. Energetika Nazirliyindən Trend-ə verilən məlumata görə, bunun 720 min barelini xam neft, 73 min barelini kondensat təşkil edib. Gündəlik 598 min barel xam neft, 73 min barel kondensat, 16 min barel isə neft məhsulları ixrac edilib.

Energetika Nazirliyi yanvar ayında gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

Qeyd edək ki, ötən il orta gündəlik neft hasilatı 792,6 min barel təşkil edib.

2018-ci ilin dekabrın 7-də Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən 2019-cu ilin yanvar ayından etibarən Azərbaycan gündəlik hasilatın təxminən 20 min barel azaldılması ilə bağlı öhdəlik götürüb.

✦ İCMAL

# “İslahat İcmalı” sərhəd ticarətinə həsr olunub




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İslahat İcmalı” sərhəddə ticarət fəaliyyətinə həsr edilib.

İcmalda bildirilir ki, xarici ticarət fəaliyyəti iqtisadi baxımdan Azərbaycanın makroiqtisadi stabilliyinin təmin olunmasına, valyuta siyasətinin tənzimlənməsinə, sahibkarların gəlirlərinin artmasına, sosial baxımdan məşğulluğun artımına təsir göstərir. Liberallıq baxımından “Yaşıl dəhliz” xarici ticarət iştirakçılarının, xüsusilə ixracatçı subyektlərin fəaliyyətini asanlaşdırır. Belə ki, yoxlama mexanizminin minimuma endirilməsi, könüllü riayət mədəniyyətinin aşılanması, sərhəd keçid məntəqələrində “bir pəncərə” mexanizminin tətbiqi bütöv nəzarətin vahid şəxs tərəfindən aparılması və sahibkarın vaxtına qənaət edilməsi “Yaşıl dəhliz”in üstünlüklərindən biridir. Bundan əlavə, “Yaşıl dəhliz” sistemi Azərbaycan sahibkarına inamın göstəricisidir. Sahibkarlıq subyekti mövcud qanuni tələbləri yerinə yetirərək “Yaşıl dəhliz” sisteminin iştirakçısı olur. Sözügedən islahat “Doing Business” hesabatının “sərhəddə ticarət” indikatoruna təsir edərək, xarici ticarət iştirakçısının daha az zaman və resursdan istifadə etməsi ilə nəticələnəcək.

“İslahat icmalı” ilə bu link http://iqtisadiislahat.org vasitəsilə tanış olmaq mümkündür.

# Azərbaycan daha bir neçə ölkəyə məhsul ixrac edəcək




İqtisadiyyat Nazirliyindən bildirilib ki, Azərbaycanın meyvə və tərəvəz məhsulları fevralın əvvəlində Almaniyanın paytaxtı Berlində keçirilən “Fruit Logistica 2019” beynəlxalq meyvə və tərəvəz sərgisində nümayiş olunub.

Sərgi çərçivəsində Azərbaycan məhsullarının ixracına dair müzakirələr aparılıb, ilkin razılaşmalar əldə edilib. Belə ki, “Gilan FMCG” şirkəti Almaniyaya pomidor ixracına dair müqavilə imzalayıb.

Azərbaycanın “Mars FK” İngiltərəyə nar ixracına, “Balxurma” şirkəti qurudulmuş xurmanın Almaniyaya, “D Fruits” şirkəti isə istehsal etdiyi məhsulların Birləşmiş Ərəb Əmirliklərinə ixracına dair ilkin razılıq əldə ediblər.

“Binə Agro” şirkəti isə məhsullarının Rusiyaya və Sudana ixracına, Hollandiya şirkətləri ilə Azərbaycanda birgə məhsul istehsalına dair danışıqlar aparıb.

Qeyd edək ki, sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə meyvə və tərəvəz istehsalı sahəsində fəaliyyət göstərən 14 Azərbaycan şirkəti öz məhsullarını “Made in Azerbaijan” vahid ölkə stendində təqdim edib. Xüsusi zövq və dizaynla hazırlanmış “Made in Azerbaijan” vahid ölkə stendi sərgiyə gələnlər tərəfindən maraqla qarşılanıb.

✦ NEFT-QAZ SEKTORU

# Xəzərdə yeni ehtiyatlar aramaq üçün geoloji kəşfiyyat aparılır



Hazırda Xəzər hövzəsinin Azərbaycana məxsus sektorundakı bir sıra perspektiv strukturlarda geoloji kəşfiyyat işləri aparılır. Onlardan bir neçəsində bu işlər SOCAR-BP tərəfdaşlığı ilə həyata keçirilir. D230 blokunun birgə kəşfiyyatı və işlənməsi üçün Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) keçən il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Meyin iştirakı ilə imzalanmışdır.

Bu saziş Xəzərdə yeni ehtiyatlar aramağa imkan yaradacaq. Başqa sözlə, saziş Azərbaycanın karbohidrogen hasilatının uzunmüddətli olmasına dəstək verəcək. İmzalanma zamanı SOCAR-ın və BP-nin rəhbərliyi hər iki şirkətin malik olduğu müasir neft-qaz texnologiyaları və topladıqları unikal tarixi təcrübə sayəsində bu sazişin də uğur qazanacağına əminlik ifadə etmişlər. Sazişin bərabər və ədalətli əsaslar üzərində qurulduğu, Azərbaycanın təbii ehtiyatlarının ortaq şəkildə maksimum səmərə ilə reallaşdırılması istiqamətində mühüm rol oynayacağı qeyd olunmuşdur.

25 illik müddəti əhatə edən HPBS-yə əsasən, strukturun işlənməsində iştirak payları SOCAR və BP şirkətləri arasında bərabər bölünmüşdür. BP operator kimi çıxış edir. Xatırladaq ki, blokda geoloji kəşfiyyat işlərinin aparılması haqqında sözügedən iki şirkət arasında Qarşılıqlı Anlaşma Memorandumu isə 2016-cı ilin may ayında imzalanmışdı.

D230 bloku Xəzər dənizinin Azərbaycan sektorunun Şimali Abşeron hövzəsində yerləşir. Bloku sahildən Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr (84 mil) məsafə ayırır. D230 təxminən 3200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3500 metrdir.

Blok üzrə kəşfiyyat işləri proqramı çərçivəsində seysmik tədqiqat işlərinin Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədi dərc edilərək ictimaiyyətin müzakirəsinə verilib. Bu sənədlərin layihə variantında kontrakt sahəsində aparılması planlaşdırılan üçölçülü seysmik tədqiqat işlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir, eləcə də tövsiyə olunan təsirazaltma tədbirləri təsvir edilir.

Seysmik tədqiqatların suyun 100-800 metr dərinliklərində strukturun bütün ərazisini əhatə edəcəyi gözlənilir. Tədqiqat proqramının ümumi məqsədi Şimali Abşeron hövzəsində perspektiv strukturlar üzrə geofiziki məlumatlar toplamaq və karbohidrogenlərin mövcud olduğu geoloji strukturları aşkar etməkdir.

ƏMSSTQ prosesinin məqsədi isə nəzərdə tutulan işlərdən yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyən etmək və minimuma endirmək, mümkün olduqda tamamilə aradan qaldırmaqdır.

Qeyd edək ki, Xəzərdəki digər perspektiv strukturlarda da işlər aparılır. BP və SOCAR-ın HPBS-lə imzaladığı daha iki strukturu misal göstərmək olar. Bunlardan biri “Şəfəq-Asiman” blokunu (2010-cu il), ikincisi Abşeron yarımadasının ətrafındakı dayaz sulu ərazini (2014-cü il) əhatə edir. Hər iki HPBS çərçivəsində seysmik tədqiqat proqramları artıq başa çatmışdır. Hazırda qazma əməliyyatları planlaşdırılır.

Bir müddət əvvəl isə BP Azərbaycanda mövcud “Qobustan” Hasilatın Pay Bölgüsü Sazişində 61 faiz iştirak payı əldə edib. Bu sövdələşmənin bir hissəsi olaraq şirkət həmin müqavilə sahəsində daha dərin layların potensialını qiymətləndirmək üçün geoloji kəşfiyyat quyusu qazacaq və əməliyyatların operatoru olacaq. Quyunun bu ilin ikinci yarısında qazılması nəzərdə tutulur.

***Flora SADIQLI, “Azərbaycan”***

# Pulumuzun 44,3 faizi ərzağa xərclənir

Cari ilin yanvar ayında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni ayının səviyyəsini müqayisəli qiymətlərlə 2,7 faiz üstələyərək 2,9 milyard manata bərabər olmuşdur.




Dövlət Statistika Komitəsinin məlumatına görə, ticarət dövriyyəsinin 1,5 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 1,4 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmiş, və satılmış məhsulların dəyəri 2018-ci ilin yanvar ayına nisbətən real ifadədə müvafiq olaraq 2,4 faiz və 3,1 faiz artmışdır.

Yanvar ayında alıcıların istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 44,3 faizi ərzaq məhsullarının, 5,9 faizi içkilər və tütün məmulatlarının, 17,6 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,1 faizi elektrik malları və mebellərin, 5,7 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,4 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Hesabat ayında istehlak məhsullarının dəyər ifadəsində 19 faizi ticarət müəssisələri, 50,4 faizi fərdi sahibkarlar tərəfindən, 30,6 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2018-ci ilin yanvar ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 31,4 faiz artmış, fərdi sahibkarlar üzrə 0,5 faiz, bazar və yarmarkalarda 5 faiz azalmışdır.

Keçən ay əhalinin bir nəfərinə düşən orta pərakəndə ticarət dövriyyəsi 293,8 manat və ya 2018-ci ilin müvafiq ayının göstəricisindən nominal ifadədə 8,1 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ay ərzində 147,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 146,2 manatlıq qeyri-ərzaq məhsulları almışdır.



# Cəlil Məmmədquluzadə -150
# Sizi deyib gəlmişəm...



● Realist sənətkar

**"Müsəlman milləti çox əqilli millətdir. Çünki bu millətdən başqa heç bir özgə millət behiştin yolunu tapa bilmir. Tutaq ki, avropalılar teleqraf, telefon və radio icad edirlər. Amma zəmanə ki, onlar behiştin yolunu tapa bilmirdilər, daha, onlar nə cürə müsəlmanlardan əqilli ola bilərlər? Əlbəttə, "ola bilməzlər".**



Bu məzəli-ağrılı, sevgi və təəssüb dolu təzadlı təsvir üsulu ilə yazılmış cümlələrin yaşı 100 ili ötür.

Millətinin gələcəyinə ünvanlı böyük mənalı kiçik felyetonlarından tutmuş milli və Şərq, hətta deyərdim dünya ədəbiyyatının məzmun, ideya, dil, bədii manera, novellavari sonluğu ilə bitən dəyərli incilər sayılan unikal "Ölülər"i nə qədər əsərləri ilə bir ömür istiqlala xidmət edən Cəlil Məmmədquluzadə bu gün də canlıdır. Müsəlman Şərqinin, cəmiyyətinin, dövrünün problemlərini bu reallıqla, çılpaqlığı ilə əks etdirən proqram əsərlərin müəllifi böyük Cəlil Məmmədquluzadə acıdığı, güldüyü, sevgi, göz yaşları ilə tənqid etdiyi qəhrəmanları, obrazları, qaldırdığı taleyüklü problemləri ilə aramızdadır, ona dönə-dönə müraciət edilir, ondan sitatlar gətirilir, öyrənilir. Böyük ədib xalqını zəifləri, kəmkəsirləri, acı həqiqətləri və qüdrətli yönləri ilə təsvir etməkdən çəkinmirdi. Xalqını, millətini kəmkəsirləri ilə tanıtmaqla istedadı, qələmilə yaratdığı bədii aynada onu özünə göstərirdi.

# Millət eşqi

Böyük əsrdaşı, qələmilə Azərbaycan ədəbiyyatını şərəfləndirən, ona yeni ruh verən, yeni don biçən sabirsayağı, Cəlilin də əsərləri, ədəbiyyatın əsas qayəsi olan bədii, estetik zövq verməkdən daha çox, xalqını özünə tanıdan, halına çarələr bulmağa çalışan, dərdinə dərman axtaran bədii vasitəyə, aynaya çevrilir.

"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" - deyəndə, o bilirdi ki, "qulaqlar kar, gözlər kor, hisslər tar, zövqlər məhv"dir. Lakin böyük sevgi, səbr, inad, əzm, cəsarətlə, həm də böyük məharət, istedadla, orijinal şəkildə, sadə, aydın dillə uzun illər usanmadan yazdı. Həcv yazdı, satira yazdı, kəskin tənqid etdi, ifşa etdi, amma xalqına sevgisi, sayğısı, gələcəyinə ümidini itirmədən, azaltmadan. Dövrünün bəzi alimləri, Cəlil Məmmədquluzadənin sərt, ifşaedici üslubunu bəyənmir, ona irad tutur, hətta qüsur sayanlar da tapılırdı, onun ifşaedici realist dili də tənqid olunur, məqbul sayılmırdı. Bəziləri isə hətta minbərdən belə onu kafir, mürtəd, dinsiz elan edir, həyatını bilərəkdən təhlükəyə atırdılar.

Lakin böyük ədib, dövrünün digər istiqlal qurucuları ilə birlikdə xalqın anlayacağı dillə danışır, bilə-bilə bu yolu yeriyirdi. Cəlil Məmmədquluzadənin realizmi zəngin ənənəyə söykənirdi, mövzuları, obrazları həyatdan gəlirdi, tanıdıqlarını, gördüklərini yazıya gətirirdi. Digər tərəfdən, böyük sələfi M.F.Axundzadə realizmini əxz etmişdi. Cəlilin realizmi bu üzdən orijinal, canlı və yenidir, fərqlidir. "Poçt qutusu", "Kişmiş oyunu", "Buz", "Usta Zeynal", "Qurbanəli bəy", "Nigarançılıq", "Zırrama", "Xanın təsbehi", "Ölülər", "Anamım kitabı", "Danabaş kəndinin məktəbi", "Danabaş kəndinin əhvalatı" və onlarca digər millətinin yoluna işıq tuta bilən, onu sağaldan kamil əsərlərini bu ruhda qələmə alır.

> "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zaman özü yaratdı. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam. Yoldaşım Ömər Faiq Nemanzadəni mən birinci dəfə "Şərqi-rus" qəzeti idarəsində gördüm, onunla üns tutdum. "Şərqi-rus" qəzeti mənim üçün iki babətdən xoş, qiymətli yadigar oldu. Birinci tərəfi budur ki, möhtərəm ədibimiz Məhəmməd ağa Şahtaxtlı məni öz qəzetinin idarəsinə cəlb etməklə qəzet dünyasına daxil etdi. İkinci tərəfi odur ki, onun varlığı ilə, onun yoldaşlığı ilə "Molla Nəsrəddin" məcmuəsini bina etdim, daha doğrusu, bina etdik. "Molla Nəsrəddin"in ilk sayı Ömər Faiq Nemanzadənin və rəssam Şmerlinqin birgə əməyinin məhsuludur".
>
> **Cəlil MƏMMƏDQULUZADƏ**

Böyük Cəlil Məmmmədquluzadə "Molla Nəsrəddin" məcmuəsi ilə dövrünün intibah salnaməsini yaradır. Xalqının maariflənməsi, təhsil alması, qadın azadlığı, dini fanatizmin kəskin ifşası, dilin saflığı uğrunda ölçüyəgəlməz işlər görmüş mollanəsrəddinçilər, başlarında Cəlil Məmmədquluzadə olmaqla XX əsrdə mədəniyyətin, ədəbiyyatın yeni axara yönəldilməsində dönüş yarada bildilər. Jurnalın dili xüsusilə seçilməyə başlayır: sadə, anlaşıqlı, xalqa tez çatan ifadələr, hər cür ərəb, fars ibarələrindən uzaq bir - Azərbaycan türkcəsi təqdim olunurdu. "Salınız yadınıza ki, ananız sizə bu dildə layla çalırdı" - deyə, dahi sənətkar xalqına xitab edirdi. "Molla Nəsrəddin" məcmuəsinin milli mədəniyyətin, ana dilin inkişafının yeni cığıra yönəldilməsi, tarixi dəyəri, yeri haqqında ədəbiyyatşünaslıqda çox deyilib, çox yazılıb, bu gün də, sabah da yazılacaq. "Molla Nəsrəddin" jurnalı açıq, cəsarətlə yazırdı, çox şeyləri bilərək göz altına alaraq da yazmaqdan çəkinmirdi.

Həmən, 1906-cı ildə elan edirdi ki, "İdarəyə göndərilən məktub və məqalələr açıq türk dilində yazılmış olmasalar, çap olunmayacaqlar".

Bu gün ana dilimiz ətrafında baş verənləri, ədəbi dilin normativlərinin pozulması, korlanması, TV-lərdə, sosial mediada Azərbaycan dilinin süni şəkildə kobudlaşdırılması, dərsliklərə ayaq açan bəzi səviyyəsiz mətnlər, ümumilikdə təhsillə bağlı böyük nigarançılıq, bəzi əcnəbi dillərin elmimizə, dilimizə, məişətimizə yenidən sürətlə, rahatlıqla gəlişi və oturuşma inadı fonunda, yüz il öncə böyük Cəlil və onun sabit əqidə, dönməz məslək yoldaşlarının titanik əməkləri böyük rəğbət doğurur. İlk nömrəsində "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər" - deyən Cəlil Məmmədquluzadə əqidəsindən dönmədən yazdı, yazdı və

"Neyləməli, göz görür, əqlim kəsir"

"Mən günəşi göydə dana bilmirəm" hayqıran, ciyərləri parçalanan Sabiri doğurur.

"Anamın kitabı" 1920-ci ildə qələmə alınıb. Artıq əsərin qəhrəmanları nə sadədil danabaşlılar, nə də Zəhrabəyim ananın İstanbul, Rusiya, İranda təhsil alan övladlarıdır. XXI əsrin əvvəlində dəyişməyən yenə də vətən bilib sığındığımız Ana dili və onun başını saran problemlərdir.

"Anamın kitabı" öz dövründə də, bu gündə bir ölkəni, bir xalqı, bir dövləti, bir ailəni təmsil edən kitabdır. Ruhumuzun, tariximiz və mədəniyyətimizin, dilimizin yuvası olan Ana dilimizdir. Əsərdə Aslan bəylərlə sadə insanlar arasında olan mükalimədən heç nə anlaya bilməyən Qurban sonda dözməyib deyir: "Səni and verirəm Allaha biznən elə danış ki, başa düşək". Bu gün dillərini əcnəbi söz və terminlərlə "zənginləşdirib" yüksək intellekt sahibi kimi, ("obrazovannı") görünməyə çalışanlar, "Anamın kitabı"nı unutmasınlar gərək" XX əsrin əvvəllərində Azərbaycana olan xarici siyasətlərin müxtəlif vasitələrlə - ən təsirli vasitə kimi həm də dillə, mənəvi həyatın aşılanması, adət-ənənələrin aşağılanması, bu gün də sivil ifadə və formalarla cəmiyyətə, ailələrə sırınır. Nəticədə XX əsrin əvvəllərində Zəhrabəyim ananın övladları timsalında "məslək üstündə", "kitab üstündə", mübahisələr düşmənçiliyə çevrilir, ailə dağılır. Böyük ədib bu zaman meydana əsrlərin sınağından keçib gələn Vətən kitabını çıxarır.

"Qaldı bircə kitab: bu da anamın kitabı!.. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki Ay və Ulduz Şəmsin parçaları olduğu kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə..."

Cəlil Məmmədquluzadənin realizmi, gülüşü, yumoru, əsərləri, obrazları bu gün də cəmiyyəti düşündürmək, canlı, diri tutmaq qadirindədir. Onun satirası, realizmi insanı daha ciddi, məsuliyyətli, yaddaşlı olmağa səsləyir. Düşünürəm ki, əsərləri, realizmi, dili, tipajları ilə yeni ədəbiyyat, yeni ədəbi məktəb yaradan Cəlil Məmmədquluzadənin irsi milli mədəniiyətdə yeni düşüncəyə yol açan ən unikal, orijinal mərhələlərindəndir.

*Xatirə BƏŞİRLİ,*
*filologiya elmləri doktoru, professor*

## "Molla Nəsrəddin" haqqında ədəbi simaların fikirləri

■ ***Həmidə xanım Cavanşir - Məmmədquluzadə:*** "1906-cı il aprel ayının 7-si gecəsi Mirzə Cəlillə Ömər Faiq Nemanzadənin cibində cəmi 9 manat pul var imiş. Onlar da bu pula çap dəzgahının qulpunu fırlatmaq üçün bir hambal tutublarmış. Gecə hambalı yola saldıqdan sonra ikinci hambal tutmağa daha pul qalmayıb. Onlar özləri səhərə qədər növbə ilə çap dəzgahının qulpunu fırlayıblar".

■ ***Üzeyir bəy Hacıbəyli:*** "Jurnal inqilabçıdır, azadlıq mübarizidir. "Molla Nəsrəddin" qırmızı rənginə görə həbs edilmişdir".

■ **Yusif Vəzir Çəmənzəminli:** "Əsrlərcə məzhəkə ilə tərbiyə tapan millətimiz aşkardır ki, "Molla Nəsrəddin" jurnalının zühuruna artıqlığınca sevindi... Ciddi qəzet və jurnallarımızın çətin dilləri, duzsuz yazıları ilə oxucuları zara gətirdikləri zaman "Molla Nəsrəddin" şöhrət tapıb, vətənimizin hər guşəsində oxunurdu... Kəmsavad baqqallarımız, çərçilərimiz höccələyə-höccələyə oxuyub "Molla Nəsrəddində"dən ləzzət apardıqları kimi, studentlərimiz, doktorlarımız, laqeyd bəy və hökumət məmurluğunda olanlarımız da ondan həzz alırdılar. Çox ailələrdə arvadlar toplanıb, balaca uşaqlara oxutdurub qulaq asırdılar" .

■ ***Əziz Mirəhmədov:*** "Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəçisidir. Onun lətifələri o qədər həyati və məzəlidir ki, bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlıların arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər bir lətifəni danışmayan adam çox nadir tapılar".

■ ***Firudin bəy Köçərli:*** "Molla Nəsrəddin" jurnalı ilk nömrələrindən başlayaraq bizim ölkənin müsəlmanları arasında canlı maraq oyatmışdır... Jurnalı bir qrup ziyalı müsəlmanların əməkdaşlığı ilə savadlı və mədəni azərbaycanlı Cəlil Məmmədquluzadə nəşr edir... "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir".

● Ədibin irsi nəşrlərdə

# Sözün sönməyən işığı

**Görkəmli yazıçı Cəlil Məmmədquluzadə əsərlərinin nəşri qayğıları ilə daim məşğul olmuşdur. Böyük ədib yazdıqlarını çap etdirmək üçün xeyli əziyyətlər çəkmiş, maneələrlə üzləşmiş, tam külliyyatının nəşrinə nail ola bilməmişdir.**



Buna görə nigarançılıq da çəkmişdir. "Xatiratım" memuarında yazırdı: "...Yazmaq istəyirdim! Çox istəyirdim yazmaq! Amma bilmirdim niyə yazım, kimdən yazım? Çünki ümidvar deyildim ki, yazdıqlarımı çap etməyə və intişara qoymağa hökumət izn verəcək. Və görürdüm ki, necə ki, qəzet icazəsini almaq mümkün deyil, habelə də əlyazmasını da kitab surətində birdəfəlik çap eləməyə də senzur idarəsi mane olur. Bə çarə nə? Yazırdım ki, görək nə vaxt bu yazıları çapa vermək mümkün olacaq".

Lakin bütün bunlara baxmayaraq, XX əsrdə ən çox nəşr olunan yazıçılar arasında Mirzə Cəlil xüsusi yer tuturdu. Tədqiqatçılar onu bu sahədə "bəxti gətirən" nasirlərdən hesab edirlər. Azərbaycanda kitab nəşri yenicə formalaşmağa başlayanda onun da əsərlərinə müraciətlər olurdu. Məslək dostu Ömər Faiq Nemanzadə "Qeyrət" mətbəəsində ədibin 1905-1907-ci illərdə "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Qurbanəli bəy" hekayələrini ayrıca kitabçalar şəklində nəşr etdirib geniş oxucu kütləsinə çatdırmışdır. 1916-cı ildə çıxan "Nigarançılıq" kitabı ədəbi mühitdə böyük əks-səda doğurmuşdur.

### Naşirlər ən çox ona müraciət edirdilər

Görkəmli yazıçının əsərlərinə naşirlər tərəfindən daha çox müraciətlər olunurdu. Səbəbi isə ilk növbədə onun yaradıcılığında millilik, yüksək vətəndaşlıq, tipiklik, ideyalılıq, sadəlik kimi xüsusiyyətlərin qabarıq ifadə olunması idi. Bu kiçik kitablarda xalq həyatına bağlılıq, ibrətamiz ideya-məzmun, milli kolorit, nağılvari dil və üslub Cəlil Məmmədquluzadəni geniş oxucu kütləsinə tanıdıb məşhurlaşdırmışdır.

1920-1930-cu illərdə yazıçının əsərlərinə maraq daha da artmışdır. Təkcə 1925-ci ildə ədibin "Baqqal məşədi Rəhim", "Molla Fərzəli", "Şeir bülbülləri", "Konsulun arvadı" hekayələri kiçik kitabçalar şəklində çap olunub yayılmışdır. "Bəlkə də qaytardılar" toplusu 1927-1928-ci illərdə əvvəlcə əski əlifba, sonra isə latın qrafikası ilə nəşr edilmişdir. 1925-ci və 1929-cu illərdə "Ölülər" tragikomediyası iki dəfə çap edilmişdir. Bunlar hamısı görkəmli ədibin sağlığında nəşr olunmuşdur.

Akademik İsa Həbibbəyli yazır: "Cəlil Məmmədquluzadənin vəfatından sonra böyük ədibin əsərlərinin nəşri bir neçə mərhələdə həyata keçirilmişdir. Birinci mərhələ Mirzə Cəlilin dünyasını dəyişdiyi 1932-ci ildən Azərbaycanın müstəqilliyi ərəfəsinə qədərki böyük bir dövrü əhatə edir. Həmin mərhələdə C.Məmmədquluzadənin əsərlərinin toplanması istiqamətində ardıcıl və səmərəli iş aparılmış, yazıçının əsərləri sistemli şəkildə tərtib edilərək nəşr olunmuşdur". O dövrdə ədibin əsərlərinin ayrı-ayrı nəşrlərinə müqəddimələr yazılmış, kitablara qeyd və izahlar əlavə olunmuşdur. Bu da həmin nəşrlərin elmi xarakter daşımasını səciyyələndirmişdir. Bu cəhətdən tanınmış ədəbiyyatşünaslar Həbibulla Səmədzadə və Əziz Mirəhmədovun xidmətləri yüksək qiymətə layiqdir. Görkəmli ədəbiyyatşünas Əziz Şərifin fədakar tərcüməçilik fəaliyyəti sayəsində ədibin rus dilində Bakıda və Moskvada seçilmiş əsərləri çap edilmişdir.

### Mirzəcəlilşünaslığa sanballı töhfələr

H.Səmədzadə "Danabaş kəndinin əhvalatları" povestinin və "Dəli yığıncağı" tragikomediyasının əlyazmalarını əldə edib 1936-1938-ci illərdə ayrı-ayrı kitablar şəklində çap etdirmişdir. Daha sonra ədibin "Əsərləri"nin iki cildi nəşr olunur. 1947-ci ildə Əziz Mirəhmədovla birlikdə "Əsərləri"nin üçüncü çildi hazırlanır. Ə.Mirəhmədov sonra Turan Həsənzadə ilə bilrikdə böyük ustadın altıcildliyini nəşrə hazırlayıb tamamlayır.

> "Ey mənim hörmətli oxucularım!.. Mən bu sözləri ondan ötrü yazmıram ki, siz oxuyandan sonra məcmuəni qoyasınız kənara və bu sözləri yaddan çıxarasınız! Mən bu sözləri yazıram ki, siz oxuyub fikrə gedəsiniz. Mən bu sözləri yazıram ki, fikir edəsiniz…"
>
> **Cəlil MƏMMƏDQULUZADƏ**

Görkəmli ədəbiyyatşünas Mir Cəlal Paşayevin Cəlil Məmmədquluzadənin zəngin irsi, çoxşaxəli fəaliyyətinin tədqiqi və nəşri sahəsində müstəsna xidmətləri vardır. Akademik Mirzə İbrahimovun ədibin əsərlərinin üçcildliyinə yazdığı müqəddimə satirik yazıçının mükəmməl elmi-ədəbi portreti sayılmağa layiqdir. Sabirşünas kimi tanınmış AMEA-nın müxbir üzvü Abbas Zamanovun mirzəcəlilşünaslıq sahəsində gördüyü işlər xüsusi vurğulanmalıdır.

1986-1991-ci illərdə ədibin naməlum əsərləri üzə çıxarılmışdır. Akademik İsa Həbibbəylinin axtarışları sayəsində yazıçının dördpərdəli "Ər" pyesi, "Oyunbazlar" və "Lənət" səhnəcikləri tapılıb ayrıca kitab halında nəşr olunmuşdur.

### Əbədi yadigarlar

Cəlil Məmmədquluzadə irsinin tədqiqi və nəşri məsələsinə yeni maraq 1994-cü ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə ədibin 125 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasından sonra ciddi surətdə artmağa başlamışdır. Ə.Mirəhmədovun redaktorluğu ilə hazırlanan "Molla Nəsrəddin" jurnalının faksimile çapının birinci və ikinci cildlərinin latın qrafikası ilə nəfis nəşri böyük elmi-ədəbi əhəmiyyət kəsb etmişdir. 2004-cü ildə onun dördcildlik külliyyatı çap edilmişdir. Bu çoxcildliyin "Ön söz"ünün müəllifi akademik İsa Həbibbəylidir.

Oxuculara təqdim edilən bu kitablarda həyata göz açan gündən "dünyanı qaranlıq görən" böyük yazıçının keçdiyi şərəfli, mübarizələrlə dolu əzablı yollar, onun çoxşaxəli yaradıcılıq fəaliyyəti barədə, dünya ədəbiyyatı xəzinəsinə bəxş etdiyi nadir incilər öz əksini tapmışdır. Bu nəşrlərə salınmış tənqidi məqalələr, oçerklər, felyetonlar, avtobioqrafik məktublar, xatirat qiymətli ədəbi yadigarlardır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Film

# "Qəm pəncərəsi": nadanlığın ifşası

**1986-cı ildə çəkilən ikihissəli "Qəm pəncərəsi" filmi Cəlil Məmmədquluzadənin xatirəsinə ithaf olunmuşdu. Film "Danabaş kəndinin əhvalatları" və "Danabaş kəndinin məktəbi" əsərlərinin motivləri əsasında lentə alınmış və bu ekran əsərində görkəmli ədib, yazıçı, dramaturqun uşaqlıq illəri ilə bağlı hadisələr əks olunmuşdur.**



Mirzə Cəlil haqqında filmdə qəm pəncərəsindən boylanan uşağın ön plana çəkilməsi millətin gələcəyi üçün nigarançılığı göstərir. Filmin ssenari müəllifi və quruluşçu rejissoru Anar, rejissoru Rafiq Dadaşovdur. Rollarda Həsənağa Turabov, Elmira Şabanova, Nəsibə Zeynalova, Səyavuş Aslan, Həsən Məmmədov və başqaları çəkilmişlər. Film əsasən Cəfər Cabbarlı adına kinostudiyanın pavilyonunda, Bakının Digah kəndində, İçərişəhərdə, təbiət çəkilişləri isə əsasən Şamaxının Zarat kəndində, Qobustanda, Qaraçı karvansarasında, Lahıcda ekranlaşdırılmışdır.

...Yolayrıcında iki uşaqdan biri məktəbə, digəri isə nadanlığa gedir. Həmin səhnə Mərəzədə lentə alınmışdır. İnsanların toplaşıb "Xudaya, bizə yağış yetir" - deyərək dua etməsi, İsgəndərin məsciddə fransızca şeir deyib insanlardan ağlamalarını tələb etməsi də, cahilliyin geniş vüsət aldığı zamanı tənqid edirdi. "Ə, niyə ağlamırsız?..." Kəndlilərdən birinin "axı biz sən deyəni başa düşmürük" - deməsi ilə İsgəndərin cavab verməsi bir olur: "Bəs molla ərəbcə oxuyanda başa düşüb ağlayırsız?-.."

Ədibin filmdə göstərmək istədiyi əsas mətləb də bu idi: cahilliyin, nadanlığın ifşası!

*"Azərbaycan"*

● Hekayə

# Dəllək

Sadıq kişinin on yaşında oğlu Məmmədvəlinin gözləri ağrıyırdı. Bir gün uşaq anasına dedi:

- Axı, Kərbəlayı Qasımın oğlu Əhmədin də gözləri ağrıyırdı. Dünən Əhmədnən arxın kənarında oynuyurduq. Əhməd burun qanadan otnan burnunu qanatdı. Elə burnundan bir az qan axan kimi, Əhmədin gözləri yaxşı oldu.

- Bala, get sən də burnunu qanat! - anası Məmmədvəliyə dedi.

Məmmədvəli getdi, otların içindən haman tikanlı otu tapdı, sol əli ilə otu soxdu burnunun deşiklərinə, sağ əli ilə yumruğunu düyüb vurdu sol əlinin altından və Məmmədvəlinin burnundan qan başladı axmağa.

Yarım saat qədərincə qan axdı. Məmmədvəli barmaqları ilə burnunun deşiklərini tutdu ki, bəlkə qan kəsilə, amma qan kəsilmək bilmədi. Axırı anasını çağırdı. Anası dəxi qanın kəsilməyinə bir çarə tapmadı.

Bu heyndə Sadıq kişi əlində ət səbəti bazardan evə ət gətirdi. Övrət üzünü tutdu Sadıq kişiyə:

- A kişi, gəl gör, Məmmədvəlinin burnunun qanına nə çarə eliyirik-kəsilmir; gəl bəlkə sən bir çarə tapasan.

Sadıq kişi oğlunun yanına yetişib, sağ əlinin barmaqları ilə yapışdı Məmmədvəlinin burnunun ucundan və qoymadı qan axsın. Amma qan burnunun içində şişib, genə yol tapıb, başladı axmağa.

- A kişi, qaç bazara - övrəti başladı uca səslə Sadıq kişiyə deməyə.

- Qaç tez Usta Hüseynin yanına. Onun həkimlikdə səriştəsi çoxdu. Tez qaç Usta Hüseynə de. Yoxsa uşağı qan aparar, evin yıxılar. Tez durma qaç və tez xəbər gətir.

Sadıq kişi əllərinin qanını arxda yuyub, üz qoydu həyətdən çıxmağa.

Sadıq kişi o vaxt Usta Hüseynin dükanına yetişdi ki, usta bir müştərinin başını qırxıb qurtarıb, qanatdığı yerlərə pambıq düzürdü.

Sadıq kişi dükanın qabağında durub salam verdi. Usta Hüseyn kişini görcək onu müştəri hesab etdi və qoltuq cibindən aynanı çıxardıb tutdu Sadıq kişinin qabağına. Sadıq kişi aynanı alıb və gözlərini yumub bir salavat zikr etdi və aynanı əvvəl sağ çiyninin, sonra sol çiyninin qabağına aparıb tutdu üzünün müqabilində və gözlərini açıb sol əli ilə başladı qırmızı saqqalını tumarlamağa və bir dəfə də salavat çevirib, aynanı qaytardı Usta Hüseynə və dedi:



- Ay Usta Hüseyn, bizim Məmmədvəlinin burnu qanıyıb. Nə əlac edirik qan kəsilmək bilmir. Arvad məni yalvara-yalvara sənin yanına göndərib, bəlkə sən bir çarə tapasan.

Usta Hüseyn Sadıq kişidən aynanı alıb əvvəl ona təklif etdi ki, girsin dükana və otursun səkinin üstündə. Sadıq kişi dükana girib oturandan sonra Usta Hüseyn onun yavuğuna yeriyib sağ əlini uzatdı və Sadıq kişinin börkünü götürüb qovzadı yuxarı. Sadıq kişi altdan-yuxarı baxırdı Usta Hüseynin üzünə. Usta başını bulaya-bulaya dedi:

- Ax, ax, vay, vay! Yazığım gəlir gününə, ay Sadıq kişi! Bilmirəm sənin axırın nə günə qalacaq! Ay kişi, ya adını erməni qoy, xalq bilsin ki, sən müsəlman deyilsən, yoxsa əgər müsəlman olmaq istəyirsən, qardaş, bu müsəlmançılıq deyil ki, sən eliyirsən. Kişi, utanmırsan başuvun tükünü bu qədər uzadıb qırxdırmırsan? Hələ xəcalət çəkməyib deyirsən ki, Məmmədvəlinin burnunun qanı kəsilmir? O Allahın qəzəbidir ki, səni tutub. Yoxsa harda görsənən şeydir ki, burnunun qanı kəsilməyə? Sənin tək müsəlmanlar bundan da artıq bəlaya giriftar olacaqlar!

Bu sözləri deyə-deyə Usta Hüseyn balaca mis qaba soyuq su töküb, Sadıq kişinin başını hər iki əlləri ilə ovurdu ki, tükləri yumşalsın. Sadıq kişi dinməz-söyləməz oturub başını əymişdi aşağa. Usta Hüseyn əllərini ətəklərinə silib götürdü ülgücü və başladı daşın üstə çəkib itilətməyə və sonra bir neçə dəfə də qayışa çəkib, Sadıq kişinin başını qırxmağa məşğul oldu və Sadıq kişiyə belə moizə elədi:

- Sadıq əmi! Müsəlmançılığın şərtləri çox ağırdır. Az bir adam bu şərtlərin hamısını əmələ gətirə bilir. Məsələn, başı tüklü saxlamaq heç bilirsən ki, necə böyük günahların biridir? Əvvəla budur ki, başını vaxtından-vaxtına qırxdırmıyanın evində heç xeyir-bərəkət olmaz. İkinci budur ki, insana növbənöv bədbəxtliklər üz verər. Mən nəyə deyirsən and içim ki, oğluvun qanının kəsilməməyi məhz tənbehdir ki, xudavəndi-aləm bu günahların qabağında sənə göndərib. Məndən sənə vəsiyyət! Bir də belə qələtlər eləmə, yazıqsan, fağırsan. Yoxsa bir özgə cür bədbəxtlik üz verər, dəxi sonra peşimanlıq bir yerə çatmaz.

Usta Hüseyn Sadıq kişinin başını qırxıb qurtardı. Sadıq kişi börkünü qoydu başına, iki qəpik çıxardıb uzatdı Usta Hüseynə və dedi:

- Usta, Allah atana rəhmət eləsin.

Və usta Hüseyn pulu alıb cavab verdi:

- Allah sənin də atana rəhmət eləsin

Sadıq kişi üz qoydu evinə getməyə.

Həyətə girib Sadıq kişi gördü ki, oğlunun qanı çoxdan kəsilib. Məmmədvəli bir uzun ağacdan at qayırıb minmişdi, həyəti o tərəfə çapırdı, bu tərəfə çapırdı və hərdən bir at kimi kişnəyirdi.

*Lağlağı*
*1906-cı il, 7 aprel*

## Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq İqtisadiyyat Nazirliyinin Aparatında istismarda olan SERP proqram təminatına texniki dəstək xidmətlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;*
- *maliyyə durumu qənaətbəxş olmalı;*
- *texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;*
- *vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır.*

Tenderdə iştirak etmək istəyənlər 100 (yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan əldə edə bilərlər:

Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi. Əlaqələndirici şəxs: Musayev Azad Əlibaba oğlu, tel: 493-88-67 (daxili nömrə: 22-82).

**Bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: İqtisadiyyat Nazirliyi**
**VÖEN:1700012751**
**Hesab: AZ82CTRE00000000000002098501**
**Ödənişin təyinatı mütləq yazılmalıdır!**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**İqtisadiyyat Nazirliyi, XHK 2098501, Büdcə səviyyəsinin kodu: 7, İqtisadi təsnifat: 142340**
**Ünvan: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84. Hökumət evi**
**Telefon: 493-88-67.**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində təklifin təminatı;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd.*

İddiaçı tenderin əsas şərtlər toplusunda göstərilən bütün maddələrə dəqiq əməl etməlidir.

Tenderdə iştirak etmək istəyən iddiaçılar yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 29 mart 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə, 08 aprel 2019-cu il saat 17:00-a qədər İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 09 aprel 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan kritik informasiya sistemlərinin vahid virtual infrastrukturda qurulması, kompüter, printer, şəbəkə avadanlıqları və proqram təminatlarının, habelə istifadədə olan texniki avadanlıqlara dair ehtiyat hissələrinin satın alınması ilə bağlı tender elanı

Azərbaycan Respublikasının Mərkəzi Bankı aşağıdakı LOT-lar üzrə açıq tender keçirir:

1-ci LOT üzrə tenderin predmeti: istismarda olan kritik informasiya sistemlərinin (Baş mühasibat sistemi, Nağd pulun idarəetmə sistemi, Elektron statistik baza və analitik hesabatlıq sistemi, Portfel idarəetmə sistemi, Bank sertifikat xidmətləri mərkəzi) vahid virtual infrastrukturda qurulması;

2-ci LOT üzrə tenderin predmeti: kompüter, printer, şəbəkə avadanlıqlarının və proqram təminatlarının satın alınması;

3-cü LOT üzrə tenderin predmeti: istismarda olan kompüter avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması.

Tender proseduru 10 aprel 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 23 may 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faiz məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *Bakı şəhərində servis xidmətinin mövcudluğunu təsdiq edən məlumat (2-ci və 3-cü LOT-lar üzrə iştirak edən iddiaçılar üçün);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı iki illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar və sənədlər.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 09 aprel 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 29 mart 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına hər bir LOT üzrə 250 (iki yüz əlli) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab № AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001.**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER, account № AZ25NABZ01701190000000001944.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təchizatı və işlərin görülməsi müddəti:

1-ci LOT üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 6 (altı) ay ərzində.

2-ci LOT üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 45 (qırx beş) bank günü ərzində.

3-cü LOT üzrə: sifarişçinin sifarişi əsasında 1 (bir) il ərzində.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından hər bir LOT üzrə Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: elman_muradov@cbar.az.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## ABŞ Senatı Rusiyaya qarşı yeni sanksiyalar hazırlayır



Senatorlar Lindsey Qrem və Bob Menendes rəsmən Rusiyaya qarşı yeni sanksiyalar haqqında qanun layihəsini baxılmaq üçün Senata təqdim etmişlər. Layihə energetika və bank sektoruna qarşı sərt məhdudiyyətləri nəzərdə tutur.

Sənəddə Rusiyanın ünvanına Suriya və Ukraynada vəziyyət, Kerç boğazında insident və ABŞ-da seçkilərə müdaxilə ilə bağlı ittihamlar yer almışdır.

Sanksiyalar Rusiyanın hüdudlarından kənarda xam neftin emalına və təbii maye qaz layihələrinə şamil oluna bilər. Rusiya banklarına qarşı da məhdudiyyətlərin tətbiqi nəzərdə tutulur.

Kerç boğazında baş vermiş hadisəyə görə fərdi sanksiyalar nəzərdə tutulmuşdur. Söhbət Ukrayna gəmilərinin saxlanmasında iştirak etmiş Rusiya Federal Təhlükəsizlik Xidmətinin 24 əməkdaşından gedir. Rusiyanın gəmiqayırma sektoruna qarşı da sanksiyalar tətbiq oluna bilər.

Əvvəllər xəbər verildiyi kimi, Prezident Vladimir Putinlə əlaqədə olan fiziki şəxslər üçün sanksiyalar hazırlanmışdır.

## Türkiyədə 52 terrorçu saxlanıldı



Türkiyə polisi ölkənin qərbində yerləşən Bursa vilayətində İŞİD terrorçu qruplaşması ilə əlaqədə şübhəli bilinən 52 suriyalını yaxalamaq üçün əməliyyat keçirmişdir. Bu barədə NTV telekanalı xəbər verir.

Əməliyyat beş ünvanda keçirilmişdir. Saxlanılanlar yerli polis idarəsində dindirilir.

Suriyada silahlı münaqişə 2011-ci ildən bəri davam edir. 2017-ci ilin axırlarında Suriya və İraqda İŞİD-in məğlubiyyətə uğradıldığı elan edilmişdir. Suriyanın bəzi rayonlarının terrorçulardan təmizlənməsi işi davam edir. Hazırda siyasi tənzimləmə, ölkənin bərpası və qaçqınların qayıtması məsələləri ön plana çıxır.

## İranda hərbçilər terror hücumuna məruz qaldı



İranın cənub-şərqində, Sistan və Belucistan əyalətində İslam İnqilab Qvardiyasının 41 hərbi qulluqçusu həlak olmuşdur. Bu barədə İRNA agentliyi xəbər verir.

Məlumata görə, intiharçı-terrorçunun idarə etdiyi minalanmış avtomobil qvardiyanın tərkibində olan “Qüds” xüsusi təyinatlı bölmənin əsgərlərini daşıyan avtobusa çırpılmışdır. Hadisəyə görə məsuliyyəti “Ceyş əl-Ədl” qruplaşması üzərinə götürmüşdür. İran Prezidenti Həsən Ruhani bildirmişdir ki, “bu cür cinayətlər və qorxaq hərəkətlər böyük İran xalqının iradəsinə təsir göstərməyəcək və onlar seçdikləri yolu davam etdirəcəklər”.

Terror aktı nəticəsində həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq Sistan və Belucistan əyalətinin hakimiyyət orqanları üçgünlük matəm elan etmişdir.

## Niger çayında 45 nəfər batdı

Benin dövlətindən olan ticarətçiləri daşıyan gəmi Niger çayında qəzaya uğramışdır. Nəticədə 45 nəfər həlak olmuşdur. 65 sərnişin xilas edilmişdir.

Yerli KİV-in xəbərinə görə, itkin düşənlər var. Lakin onların dəqiq sayı hələ ki bilinmir.

Qəzaya səbəb kimi gəminin həddən artıq yüklənməsi bildirilir. Bundan əlavə, qəza zamanı çayda güclü külək əsirdi.

## ABŞ prezidentliyinə əbədi namizəd vəfat etdi



1976-2004-cü illərdə ABŞ-da bütün prezident seçkilərində namizəd kimi iştirak etmiş Lindon Laruş (oğul) 96 yaşında dünyasını dəyişmişdir. Bu barədə “Assoşieyted Press” agentliyi xəbər verir.

Mövqeyini vaxtaşırı dəyişən Laruş müxtəlif siyasi qüvvələrdən namizəd göstərilirdi. O, 1990-cı ildə Virciniya ştatından Konqresə seçilməyə cəhd etmişdi. 1992-ci ildə dəmir barmaqlıqlar arxasında olarkən prezident seçkilərində iştirak etmişdir. O, vergidən yayındığına görə 15 il iş alsa da, altı ildən sonra azadlığa buraxılmışdır.

Laruş konspiroloji nəzəriyyələrin tərəfdarı idi: o, adamları QİCS-in yayılmasında Beynəlxalq Valyuta Fondunun günahkar olmasına, ABŞ-ın dövlət katibi Henri Kissincerin SSRİ-nin xeyrinə casusluq etməsinə, Böyük Britaniya kraliçasının isə dünyada narkotik maddələr ticarətində əli olmasına inandırırdı.

Laruşun seçki komitəsi əbədi namizədin ölümünü təsdiqləmişdir. O, nekroloqda “filosof, alim, şair və dövlət xadimi” adlandırılır.

## Azərbaycan Respublikası Mərkəzi Bankının maliyyə hesabatlarının auditinin keçirilməsi üçün tender elanı

**Azərbaycan Respublikası Mərkəzi Bankının 2019, 2020 və 2021-ci illər üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının illik auditinin Beynəlxalq Audit Standartlarına uyğun keçirilməsi üzrə açıq tender keçirir.**

Tender proseduru 09 aprel 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı şirkətin və audit heyəti rəhbərinin mərkəzi bankların auditində iş təcrübəsi olmalıdır. Bu tələbə cavab verməyən iddiaçılar tenderdə iştirak edə bilməzlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi. Təklif 22 may 2019-cu il tarixədək qüvvədə olmalıdır;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında dövlət orqanından arayış;*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 08 aprel 2019-cu il tarixdə saat 18:00-dək möhürlənmiş, imzalanmış, yazılı surətdə, ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 28 mart 2019-cu il tarixdə saat 18:00-dək möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Mərkəzi Bankın aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**M/H: AZ74NABZ01451700000000001944**
**SWIFT: NABZAZ2C**
**VÖEN: 9900071001**
**H/H: AZ25NABZ01701190000000001944.**

Tenderin nəticəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildikdən sonra tenderin qalibi elan ediləcəkdir.

Auditin aparılma yeri: Mərkəzi Bankın inzibati binası (Bakı şəhəri, R.Behbudov küçəsi, 90).

Auditin başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Auditin aparılma müddəti: 2019, 2020 və 2021-ci illər (hər hesabat ili üzrə növbəti ilin birinci rübünün sonunadək).

Qiymətləndirmə meyarları:
a) Maliyyə amili
b) Texniki amillər, o cümlədən:
- *audit heyətinə daxil olan auditorların təcrübəsi;*
- *audit heyəti rəhbərinin təcrübəsi;*
- *auditor şirkətinin təcrübəsi.*

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər.

Tender üzrə əlaqələndirici şəxs:
Vidadi Məmmədov. Telefon: (+99412) 493-11-22 (562).

***Tender komissiyası***

## “Azercell” şirkəti “Qış Məktəbi” layihəsində SABAH tələbələrinə dəstək oldu



Azərbaycanda gənclərin peşəkar və fərdi inkişafına daim dəstək olan, Korporativ Sosial Məsuliyyət strategiyasında təhsilin inkişafına töhfə verən “Azercell Telekom” MMC, Azərbaycan Respublikası Təhsil Nazirliyi SABAH qrupları Karyera Akademiyası proqramı çərçivəsində daha bir layihəyə dəstək verdi. Belə ki, 12-14 fevral tarixlərində Qubada təşkil edilmiş SABAH Karyera Qış Məktəbində “Azercell” şirkətinin əməkdaşları tələbələrə təlimlər keçib, bilik və təcrübələrini onlarla bölüşüblər. “Azercell” Akademiyasının peşəkar təlimçiləri Vahida Orucova, Sevinc Teymurova və Ceyhun Süleymanov “Təqdimat Bacarıqları” və “Karyera brendini yarat” mövzusunda təşkil olunmuş master-klasda tələbələr qarşısına çıxış ediblər. İki gün davam edən təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib. Onu da bildirək ki, “Azercell” əməkdaşları 2017 və 2018-ci illərdə təşkil olunan SABAH Karyera “Qış Məktəbi” layihəsində həmçinin fəal iştirak ediblər. Ötən illərdə olduğu kimi, bu il də təlimlərdə əsas istiqamət karyera quruculuğu üzrə fundamental bacarıqların inkişafı olub.

Qeyd edək ki, 2017-ci ildə Təhsil Nazirliyi SABAH qrupları və “Azercell Telekom” MMC arasında memorandum imzalanıb. Memoranduma əsasən, “Azercell” şirkəti tərəfindən təşkil edilən Tələbə Təqaüd Proqramı və Təcrübə Proqramı çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyinin SABAH qrupları tələbələri üçün hər il xüsusi yerlər ayırılır. Belə ki, Tələbə Təqaüd Proqramının 2019-cu il üzrə 25 qalibindən 9-u məhz SABAH qruplarının tələbələri olub. Qaliblər ali təhsillərinin sonunadək “Azercell”dən 200 manat məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqda biliklərini artırmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə, məlumat sessiyalarında və kurslarda iştirak etmək imkanı əldə edəcəklər. Əlavə olaraq son 2 ildə 25 SABAH tələbəsi “Azercell”in Tələbə Təcrübə Proqramı çərçivəsində təcrübə keçmək imkanına malik olmuşdur. Onlardan biri artıq “Azercell” ailəsinə belə qoşulub.

***“Azərbaycan”***

# Cəfər Cabbarlı irsi öyrənilir

### Dramaturqun bu vaxtadək naməlum qalan “Kazım bəy” romanı və məktubları ilk dəfə kitab halında nəşr ediləcək

Prezident İlham Əliyevin görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında 17 dekabr 2018-ci il tarixli sərəncamına əsasən Milli Elmlər Akademiyasında bir çox tədbirlərin həyata keçirilməsi üçün ciddi hazırlıq işləri aparılır. Bu münasibətlə akademiyanın Humanitar və İctimai elmlər bölmələrinin əhatə etdiyi elmi-tədqiqat institutları Cəfər Cabbarlının ev-muzeyi ilə birlikdə respublika miqyasında elmi konfrans keçirəcək.

Bu barədə məlumat verən Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, konfransda elmi məruzələrin edilməsi ilə yanaşı, Cəfər Cabbarlıya həsr edilmiş film, onun həyatı və yaradıcılığını əks etdirən sərgi nümayiş etdiriləcək.

Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat və Nəsimi adına Dilçilik, Memarlıq və İncəsənət, Fəlsəfə və Tarix institutlarında, Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Hüseyn Cavidin ev-muzeyində də elmi konfranslar və elmi sessiyalar, sərgilər təşkil olunacaq.

Cəfər Cabbarlının bu vaxtadək naməlum qalan “Kazım bəy” adlı romanı və məktubları ilk dəfə kitab halında nəşr ediləcək. Bu əsərləri filologiya elmləri doktoru, professor Asif Rüstəmli aşkar edib.

Əlyazmalar İnstitutunda isə Cəfər Cabbarlının şəxsi arxivi rəqəmsallaşdırılır. Böyük yazıçının şəxsi arxivində 2 mindən çox sənəd var. Milli Elmlər Akademiyasının alimləri ölkə miqyasında keçiriləcək tədbirlərdə də yaxından iştirak edəcəklər.

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 5, 12 dekabr 2018-ci, 17 yanvar və 2 fevral 2019-cu il tarixli nömrələrində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına “Yuyucu və təmizləyici” vasitələrinin satın alınması məqsədilə dərc edilmiş tenderlərində yetərsay olmadığından tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **25 fevral 2019-cu il saat 16:00-a,** təkliflərin açılışı isə **26 fevral 2019-cu il saat 16:00-a** dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs: Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).**

***Tender komissiyası***

Təkrar

# Bakı Şəhər İcra Hakimiyyəti “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilən LOT-lar üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdır.

**LOT-1:** “Philiphs” markalı mal-materialların və digər idxal məmulatlarının alınması

**LOT-2:** “Osram” markalı mal-materialların və digər idxal məmulatlarının alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Təşkilat: “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi**
**Beynəlxalq Bankın Yasamal filialı**
**Kod: 805562**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT BIK IBAZAZ2X**
**H/h: AZ93IBAZ38010019449667485216**
**VÖEN: 9900013961**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 05.03.2019-cu il tarixdə saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir. Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT-lar üzrə tender təkliflərini 14.03.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 18.03.2019-cu il saat 16:00-da “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsinin binasında (Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Y.Hüseyinov, 45) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Samir Həsənov**
**Telefon: (012) 440 11 49**

***Tender komissiyası***

Təkrar

# Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə

## *açıq tender elan edir*

**LOT 1:** Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin və odadavamlı məhlulun alınaraq vurulması işlərinin satın alınması;

**LOT 2:** Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin və müvafiq sahəyə uyğun zəruri avadanlıq, iş və mal-materialların satın alınması;

**LOT 3:** Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki, habelə kabellərin izolyasiya müqavimətinin ölçülməsi və ildırımötürücülərin yoxlanılması xidmətlərinin və elektrik mallarının və məişət avadanlıqlarının satın alınması;

**LOT 4:** Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən əsas inzibati binasında 550 kVA-lıq generator qurğusunun təchizatı və quraşdırılması işlərinin satın alınması;

**LOT 5:** Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması.

Tender proseduru **28 mart 2019-cu il tarixdə saat 15:00-da** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90) keçiriləcəkdir.

**Tenderdə iştirak etmək** üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- tenderdə iştirak üçün ərizə (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);
- iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;
- iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 10 may 2019-cu il tarixədək qüvvədə olmalıdır);
- tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);
- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması barədə dövlət orqanından arayış;
- tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.

**İddiaçı tender təklifini** və tender təklifinin bank təminatını 27 mart 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə, ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 11 mart 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

**İddiaçılar tenderdə iştirak** haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına **hər bir iştirak etdiyi LOT üzrə** 80 (səksən) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004, VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ2C**
Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

**Satınalmaya başlanma vaxtı:**

LOT 1: Texniki xidmət 01.10.2019-cu il tarixdən, digər iş və mal-materialların satın alınması tenderin əsas şərtlər toplusuna uyğun olaraq;

LOT 2: Texniki xidmət 17.04.2019-cu il tarixdən, digər iş və mal-materialların satın alınması tenderin əsas şərtlər toplusuna uyğun olaraq;

LOT 3: Texniki xidmət 01.07.2019-cu il tarixdən, digər iş və mal-materialların satın alınması tenderin əsas şərtlər toplusuna uyğun olaraq;

LOT 4: Satınalma müqaviləsi imzalandığı gündən;

LOT 5: 02.05.2019-cu il tarixdən.

**Malların təchizatı və işlərin görülməsi müddəti:**

LOT 1, LOT 2 və LOT 3: Texniki xidmət dövri olaraq 1 il müddətində, digər iş və mal-materialların satın alınması tenderin əsas şərtlər toplusuna uyğun olaraq;

LOT 4: Satınalma müqaviləsi imzalandığı gündən 50 (əlli) təqvim günü müddətində;

LOT 5: Dövri olaraq 1 il müddətində.

**Qiymətləndirmə meyarları:**

LOT 1, LOT 2, LOT 3 və LOT 5: qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza);

LOT 4: Qiymət amili və zəmanət şərtləri.

**Tenderdə iştirak etmək** istəyən iddiaçı şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Əlaqələndirici şəxslər:

**Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax. tel.: 428)**
**Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax. tel.: 599).**

***Tender komissiyası***

Təkrar

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri və inzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması ilə bağlı

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri və inzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması işlərinin yerinə yetirilməsi layihəsinə başlamışdır.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC bu layihəni həyata keçirmək üçün qanunvericiliklə qadağan olunmamış şirkətləri tenderdə iştirak etməyə dəvət edir.

Tender 2 LOT üzrə keçirilir.

LOT 1: “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri;

LOT 2: İnzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması.

Tenderdə iştirak etmək üçün iddiaçıların qeydiyyatı və ilkin sənədlərin təqdim edilməsi 07 mart 2019-cu il saat 17:00-a qədər aparılır.

İddiaçının təklifləri (1 nüsxə əsli, 1 nüsxə surəti) Tender komissiyası tərəfindən 18 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində “Azərpoçt” MMC-nin Əsas vəsaitlərin idarə olunması şöbəsində qəbul olunur. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tenderə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək haqqında müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *İddiaçının tender təklifi;*
- *İddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *İddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *Tenderin əsas şərtlər toplusunda müəyyən edilmiş digər sənədlər;*
- *İddiaçı təqdim edəcəyi malların (işlərin və xidmətlərin) keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər;*
- *İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

I LOT üzrə - 300 manat
II LOT üzrə - 300 manat

məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC,**
**Kod: 690001,**
**M/H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**
**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ46AZPO99995381000420000094**

İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Ödəniş haqqında sənəd qeydiyyat zamanı təqdim olunmalıdır.

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq keçiriləcəkdir.

Tenderdə iştirak etməkdə maraqlı olan bütün iddiaçılar layihənin texniki tələbləri ilə bağlı əlavə məlumatları “Azərpoçt” MMC-nin Əsas vəsaitlərin idarə olunması şöbəsindən ala bilərlər. Sənədlər Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində qəbul olunur.

Telefon: (99412) 493-56-00 (daxili: 201), Faks: (99412) 493-00-37.

Tenderin qiymətləndirilməsi zamanı təmir-tikinti işlərinin görülməsi, təmir işlərinin qısa müddətdə başa çatdırılmasına təminat verən və təmir-tikinti təcrübəsi olan müəssisə və təşkilatlara üstünlük veriləcəkdir.

Tender təklifləri 19 mart 2019-cu il saat 11:00-da iddiaçıların iştirakı ilə “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətində (ünvan: Üzeyir Hacıbəyli küçəsi, 72) açılacaqdır.

***Tender komissiyası***

Təkrar

# Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2019-cu ildə Ağcabədi şəhəri ərazisində yolların təmirinin və abadlıq işlərinin satın alınması ilə əlaqədar

## *tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir.**

LOT-1: Ağcabədi şəhəri ərazisində yolların təmirinin satın alınması.

LOT-2: Ağcabədi şəhəri ərazisində abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tender təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti (qiymətləndirmə bal sistemi ilə həyata keçiriləcəkdir).

Müqaviləni yerinə yetirmək üçün satınalma prosedurunun iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər göstərilən hər LOT üçün 120 manat məbləğində iştirak haqqını Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin hesabına köçürdükdən sonra əsas şərtlər toplusunu ala bilərlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi.

**VÖEN: 3400109921**
**H/h: AZ86CTRE00000000000002515432 Fond 7y**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**H/h: AZ41NABZ01360100000000003944**

Tender proseduru ilə maraqlananlar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər. A.Həsənov, tel.: 27-5-02-24

Ünvan: Ağcabədi şəhəri, F.Əlizadə küçəsi, 19. Maraqlananlar əsas şərtlər toplusunu yuxarıda göstərilmiş ünvandan ala bilərlər.

Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender sorğusu prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin 1 faizi həcmində bank zəmanəti zərflər açılan tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının tender təklifləri Azərbaycan dilində olmalıdır.*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 04 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 14 mart 2019-cu il saat 17:00-a qədər (ünvan: Ağcabədi şəhəri, F.Əlizadə küçəsi, 19) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Ağcabədi şəhəri, F.Əlizadə küçəsi, 19 nömrəli ünvanda yerləşən Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyində 15 mart 2019-cu il saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Şıxlar, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin əməkdaşları Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Rauf Cəfərova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Hadi Rəcəbli və Hüseynbala Mirələmov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllı rayonundan Mirdaməd Sadıqov ailəsi ilə birlikdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kamil Qafarov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Qobustan Rayon Məhkəməsinin sədri Mirələm Quliyevə atası

**QOÇU QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahmud Nəbiyev və Bakı Ağır Cinayətlər Məhkəməsinin kollektivi Mayıl Bayramova anası

**LİLEYLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Mayıl Bayramova anası

**LİLEYLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Nurəddin Alqayevə oğlu

**SAMİR ALQAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Samur-Abşeron Kanalının İstismarı İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin baş məsləhətçisi Nurəddin Alqayevə oğlu

**SAMİRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərişıq” ASC-nin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərişıq” ASC-nin kollektivi “Azərbaycan” nəşriyyatının baş direktoru Ağabəy Əsgərova bacısı

**PƏRİXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Melioservis İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin baş məsləhətçisi Nurəddin Alqayevə oğlu

**SAMİRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov və universitetin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8360
Sifariş 506
Qiyməti 40 qəpik